ELM

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Qüvvət elmdədir...

Nizami Gəncəvi

НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

SCIENCE

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 14 (1411) ❖ Cümə, 26 aprel 2024-cü il ❖ Qəzet 1984-cü ildən nəşr olunur



# Qırğızıstan Prezidenti Sadır Japarovun Azərbaycana dövlət səfəri

**Aprelin 24-də Azərbaycan Respublikasına dövlət səfərinə gələn Qırğız Respublikasının Prezidenti Sadır Japarovun rəsmi qarşılanma mərasimi olub.**

Azərbaycan Prezidenti İlham Əliyev Qırğızıstan Prezidenti Sadır Japarovu qarşılayıb.

Həmin gün Prezident İlham Əliyevin Prezident Sadır Japarovla məhdud tərkibdə görüşü olub.

Sonra dövlət başçılarının iştirakı ilə Azərbaycan və Qırğızıstan Dövlətlərarası Şurasının 2-ci iclası keçirilib.

İclasda çıxış edən Prezident İlham Əliyev səfərin ölkələrimiz və xalqlarımız arasında qardaşlıq, dostluq münasibətlərinin möhkəmləndirilməsi işinə xidmət edəcəyini deyib: "Sizinlə məhdud dairədə ikitərəfli qarşılıqlı fəaliyyət üzrə bir çox məsələləri müzakirə etdik. Həm ikitərəfli münasibətlərin inkişafı məsələlərində, həm də bizim beynəlxalq təşkilatlarda iştirakımızla bağlı məsələlərdə, beynəlxalq strukturlar çərçivəsində qarşılıqlı dəstək üzrə mövqelərimiz tam üst-üstə düşür. Bu gün Dövlətlərarası Şuranın ikinci iclası keçirəcəyik, müvafiq nazirliklərin nümayəndələrinin görülən işlər haqqında hesabatını dinləyəcəyik. Prinsip etibarilə ölkələrimiz arasında qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsi üzrə iş heç vaxt dayandırılmayıb. Müvafiq nazirliklər, idarələr daimi təmasdadırlar, fəal qarşılıqlı fəaliyyət göstərirlər və müntəzəm məsləhətləşmələr keçirirlər. Ona görə də əminəm ki, bugünkü səfər həm də nazirlər üçün qarşılıqlı fəaliyyətimizin aktual məsələlərinin müzakirəsinə imkan yaradacaq".

Qırğızıstan Prezidenti Sadır Japarov Azərbaycana dövlət səfəri etməklə bağlı dəvətə, həmçinin göstərilən səmimi qəbula görə təşəkkürünü bildirib, Qırğızıstan-Azərbaycan əməkdaşlığının gələcək inkişafı haqqında fikirlərini bölüşüb: "Əminəm ki, bu səfər iki ölkə arasında münasibətlərin dərinləşməsinə böyük töhfə olacaq, bu gün imzalanan sənədlər isə əməkdaşlığımızın genişlənməsinə kömək edəcək. Biz Qırğızıstan ilə Azərbaycan arasında strateji tərəfdaşlığın müntəzəm surətdə davam etməsi baxımından bu səfərə böyük əhəmiyyət veririk. Qırğızıstan gələcəkdə də dövlətlərarası münasibətlərin yüksək səviyyədə və hökumətlərarası, regionlararası və gələcək əməkdaşlıq mexanizmləri üzrə sonrakı inkişafına hazırdır".

Daha sonra prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər.

Dövlətimizin başçısı bəyanatında səfərin ölkələrimiz arasında dostluq, qardaşlıq münasibətlərinin möhkəmləndirilməsinə töhfə verəcəyini vurğulayıb: "Qarşılıqlı fəaliyyətimizin gündəliyi kifayət qədər genişdir. Bu gün biz həm məhdud tərkibdə, həm də geniş heyətdə qarşılıqlı fəaliyyətimizin əsas məsələlərini müzakirə etdik, Dövlətlərarası Şuranın ikinci iclasını uğurla keçirdik, müvafiq idarələrin rəhbərlərinin məlumatlarını dinlədik və müvafiq tapşırıqlar verdik... Bu gün Mərkəzi Asiya və Xəzər regionları, Xəzər və Cənubi Qafqaz regionlarının bir hissəsi olan Azərbaycan enerji resursları, nəqliyyat yolları, ticarət baxımından böyük əhəmiyyət kəsb edir. Burada böyük potensial görürük. Ən başlıcası, qardaş ölkələrdən olan ənənəvi tərəfdaşlarımızla qarşılıqlı fəaliyyəti möhkəmləndiririk. Onların arasında Qırğızıstanla əməkdaşlıq xüsusi əhəmiyyətə malikdir".

Prezident İlham Əliyev, həmçinin energetika və nəqliyyat sahələri ilə bağlı məsələlərin də müzakirə edildiyini deyib: "Burada da potensial görürük. Biz Qırğızıstanda bərpaolunan enerji üzrə investisiya layihələrində maraqlıyıq. Nəqliyyat sahəsinə gəldikdə, həm Qırğızıstanda, həm də Azərbaycanda irimiqyaslı nəqliyyat layihələri, dəmir yolunun tikintisi həyata keçirilir. Əlbəttə, artıq nəqliyyat marşrutlarının rəqəmsallaşdırılmasının və tarif siyasətinin razılaşdırılması baxımından məsləhətləşmələr aparmağa başlamaq lazımdır. Biz Xəzər, Mərkəzi Asiya vasitəsilə Avropaya marşrutu təkcə məsafə nöqteyi-nəzərindən deyil, həm də kommersiya cəlbediciliyi baxımından əlverişli etməliyik".

Sonra Qırğızıstan Prezidenti mətbuata bəyanatla çıxış edib. Qırğız Respublikası ilə Azərbaycan Respublikası arasında strateji tərəfdaşlığın möhkəmləndirilmiş münasibətlərinin qurulması üzrə Birgə Bəyannamənin imzalandığını, Azərbaycan-Qırğız İnkişaf Fondunun fəaliyyət perspektivlərinin müzakirə edildiyini, Azərbaycan tərəfindən İssık-Kul gölünün sahilində beşulduzlu otelin tikilməsi və Ağdam rayonunda Qırğızıstan tərəfindən orta məktəb binasının tikilməsi məsələlərinin nəzərdən keçirildiyini bildirib.

Prezident Sadır Japarov imzalanan sənədlər arasında iki ölkənin ortamüddətli perspektivdə ikitərəfli qarşılıqlı fəaliyyətinin əsas Yol xəritəsi qismində istifadə olunacaq əməkdaşlığın inkişafına dair beşillik kompleks proqramı xüsusilə qeyd edib. O, həmçinin ölkələrimiz arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Sazişin iki ölkənin təsərrüfat subyektlərinin qarşılıqlı iqtisadi fəaliyyətinin həyata keçirilməsində böyük əhəmiyyətə malik olduğunu vurğulayıb.

Qırğızıstan Prezidenti çıxışının sonunda qardaş Azərbaycan xalqını qlobal miqyaslı tədbirin - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsi hüququnu əldə etdiyinə görə təbrik edib, xalqımıza sülh və tərəqqi arzulayıb.

Həmin gün Prezident İlham Əliyev və Prezident Sadır Japarov Bakıda görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun abidəsinin açılış mərasimində iştirak ediblər.

Mərasimdə çıxış edən Prezident İlham Əliyev qırğız xalqının böyük oğlu, dünyaşöhrətli yazıçı Çingiz Aytmatovun həyatı boyu həm Sovet İttifaqı məkanında, həm də dünya miqyasında öz xalqını layiqincə təmsil etdiyini deyib.

"Xatirimdədir, o, vəfatından bir az əvvəl Azərbaycana səfər etmişdi və mən onunla görüşmək, bir çox məsələlərdə uzun söhbət aparmaq imkanı əldə etdim. Həmin gün mən onu ehtiram əlaməti olaraq və münasibətlərimizin möhkəmlənməsi işində xidmətlərinə görə Azərbaycan dövlətinin yüksək mükafatı olan "Dostluq" ordeni ilə təltif etdim. O, hər zaman haqq-ədalətin tərəfində olub. Təsadüfi deyil ki, o, təkcə yazıçı kimi deyil, həm də ictimai xadim kimi keçmiş SSRİ məkanında və dünya miqyasında böyük hörmət qazanmış şəxsiyyət idi və onun xatirəsi, əlbəttə ki, qırğız xalqının, bütün qardaş xalqların qəlbində yaşayır",- deyə dövlətimizin başçısı vurğulayıb.

Qırğızıstan Prezidenti Sadır Japarov abidənin yaradılmasına öz enerjisini, istedadını və vaxtını sərf etmiş hər kəsə dərin minnətdarlığını bildirib: "Qoy, bu abidə Çingiz Aytmatovun öz yaradıcılığında çox gözəl əks etdirdiyi dəyərlər ətrafındakı birliyimizin və əbədi bağlılığımızın rəmzi olsun. Bir daha Azərbaycan tərəfinə səmimi-qəlbdən təşəkkürümü bildirmək və qardaş Azərbaycan xalqına sülh, xoşbəxtlik və firavanlıq arzulamaq istəyirəm".

Sonra dövlət başçıları Çingiz Aytmatovun abidəsi üzərindən ağ örtüyü götürüblər.

Dövlət başçıları Azərbaycan və Qırğızıstanın tanınmış mədəniyyət və incəsənət xadimləri ilə də görüşüb söhbət ediblər və xatirə şəkli çəkdiriblər.

Görüşdən sonra "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Qırğız Respublikasının Prezidenti Sadır Japarovun şərəfinə dövlət ziyafəti verilib.

Azərbaycan Respublikasında dövlət səfərində olan Qırğız Respublikasının Prezidenti Sadır Japarov aprelin 25-də Füzuli rayonuna gəlib.

Ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüş Füzuli Beynəlxalq Hava Limanında Qırğızıstanlı həmkarını Prezident İlham Əliyev qarşılayıb.

Dövlət başçıları Füzuli şəhərinin dağıdılmış yerlərinə baxıblar, şəhərin Baş planı, Ağdamda Pənahəli xanın sarayı və İmarət kompleksində görülən işlərlə tanış olublar. Həmçinin Ağdam Cümə məscidinin bərpadan sonra açılışında iştirak ediblər və Ağdam Konfrans Mərkəzi ilə tanış olublar.

Azərbaycan və Qırğızıstan prezidentləri Ağdam rayonunun Xıdırlı kənd tam orta məktəbinin birgə təməlqoyma mərasimində iştirak ediblər və Şahbulaq qalasında olublar.

# AMEA Rəyasət Heyətinin iclası

**Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin növbəti iclası keçirilib.**



Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Rəyasət Heyətinin üzvləri, Rəyasət Heyəti aparatının şöbə müdirləri, gənc alimlər və aidiyyəti şəxslər iştirak ediblər.

İclası giriş sözü ilə akademik İsa Həbibbəyli açaraq tədbirin gündəliyi barədə məlumat verib.

Əvvəlcə AMEA-nın Qadınlar Şurasının sədri fəlsəfə elmləri doktoru, professor Rəna Mirzəzadəyə AMEA-nın Təşəkkürnaməsi təqdim edilib.

İclasda müzakirəyə çıxarılan ilk məsələ AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin Füzuli şəhərinə səfərinin nəticələri haqqında olub.

Akademik İsa Həbibbəyli bildirib ki, Füzuli şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin birgə iştirakı ilə 2023-cü ildə açılışı edilən Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbdə 8 aprel 2024-cü il tarixində böyük özbək alimi və dövlət xadimi Mirzə Uluqbəyin 630 illiyinə həsr olunmuş beynəlxalq elmi konfrans keçirilib.

Tədbirdə, həmçinin Özbəkistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanovun, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun, Qarabağ Regional Təhsil İdarəsinin nümayəndələri, eləcə də məktəbin kollektivinin iştirak etdiyini diqqətə çatdırıb.

Akademik İsa Həbibbəyli Azərbaycan-Özbəkistan xalqlarının eyni tarixi soykökə, dilə, mədəniyyətə malik olduğunu, ölkələrimiz arasında əlaqələrin son illərdə dövlət başçılarımızın sıx dostluq və qardaşlıq münasibətləri sayəsində özünün ən yüksək dövrünü yaşadığını bildirib.

AMEA rəhbəri dövlətlərimiz arasında bir çox sahədə olduğu kimi, elm və təhsil sahəsində də sıx əlaqələrin qurulduğunu söyləyib. Qeyd edib ki, Qarabağın işğaldan azad edilməsindən sonra bu regionun elmi və mədəni mühitinin inkişafı istiqamətində də ciddi addımlar atılıb, tədbirin "Böyük Qayıdış" hərəkatı çərçivəsində təşkil olunan ilk böyük beynəlxalq elmi konfrans olduğunu bildirib.

AMEA prezidenti tədbir çərçivəsində AMEA Rəyasət Heyəti və Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən nəşr olunmuş bir çox kitabın məktəbin kitabxanasına hədiyyə edildiyini diqqətə çatdırıb.

Akademik İsa Həbibbəylinin çıxışı dinlənildikdən sonra AMEA-nın elmi müəssisə və təşkilatlarına Özbəkistan Respublikasının elm və ali təhsil müəssisələri ilə elmi əlaqələrin daha da gücləndirilməsi istiqamətində zəruri addımları atılmasının davam etdirilməsi tapşırılıb.

AMEA rəhbəri daha sonra Azərbaycan Milli Elmlər Akademiyası, Naxçıvan Dövlət Universiteti və Azərbaycan Milli Onkologiya Mərkəzinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Universitetində akademik, tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi, "Şöhrət" ordenli Rəhim Rəhimovun anadan olmasının 100 illiyinə həsr edilmiş "Nəsillərə nümunə" adlı yubiley konfransında iştirakı barədə məlumat verib.

Qeyd edib ki, Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi çərçivəsində təşkil olunan konfransda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayevin, AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin, AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynovanın, Milli Onkologiya Mərkəzinin baş həkimi tibb üzrə fəlsəfə doktoru Azad Kərimlinin, Azərbaycan Tibb Universitetinin kafedra müdiri AMEA-nın müxbir üzvü Sudeyf İmamverdiyevin və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi, akademik Asəf Hacıyevin çıxışları dinlənilib. Çıxışlarda böyük elm və səhiyyə təşkilatçısı Rəhim Rəhimovun Azərbaycan tibb elminə şərəflə xidmət etdiyi, respublikamızda onkologiyanın inkişafında misilsiz xidmətlər göstərdiyi, yüksəkixtisaslı peşəkar kadrların hazırlanmasına və onkoloji sahənin maddi-texniki bazasının formalaşmasına mühüm töhfələr verdiyi vurğulanıb.

Konfrans çərçivəsində, həmçinin AMEA nümayəndələrinin alimin doğulduğu Ordubad şəhərində adına verilmiş küçədə "Elm parkı"nın salınması mərasimində iştirak etdiklərini söyləyib.

Akademik İsa Həbibbəylinin çıxışı dinlənildikdən sonra AMEA-nın Rəyasət Heyəti tərəfindən müvafiq qərar qəbul olunub.

Daha sonra bir sıra elmi-təşkilati məsələlər müzakirə edilib.

İdarəetmənin optimallaşdırılması, dünya elmindəki prioritetlər və günün tələbləri nəzərə alınmaqla daxili imkanlar və mövcud ştat vahidləri hesabına AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun Albanşünaslıq Elmi Mərkəzinin bazasında Antik dövr və Alban arxeologiyası şöbəsi və İlk orta əsrlər dövrü arxeologiyası şöbəsinin, Azərbaycanın orta əsr dövrü arxeologiyası şöbəsinin bazasında İslam dövrü arxeologiyası şöbəsinin, eləcə də Məhkəmə arxeologiyası şöbəsi və Elmi informasiya şöbəsinin yaradılması haqqında qərarlar qəbul olunub, Xəzərin arxeologiyası şöbəsinin adında dəyişiklik edilib və AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun yeni strukturu təsdiqlənib.

Bundan əlavə, AMEA Rəyasət Heyətinin "AMEA-da ekspedisiyaların təşkili üzrə Komissiyanın yaradılması haqqında" 13 mart 2023-cü il tarixli qərarına dəyişiklik edilib.

Akademik İsa Həbibbəyli qeyd edib ki, AMEA-da aparılan kompleks islahatların mühüm istiqamətlərindən birini elmi tədqiqatların ölkənin tarixi, siyasi, sosial, hüquqi və mənəvi-mədəni sahələrini əhatə edən inkişaf istiqamətlərinə uyğun təşkil edilməsi və həyata keçirilməsi təşkil edir. Bildirib ki, ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi və hərbi rəhbərliyi ilə Azərbaycan öz tarixi torpaqlarını azad edərək dövlət suverenliyini tam bərpa etmişdir. Azərbaycanın regionda və dünyada siyasi arxetektonikanın müəyyənləşməsində əsas amilə çevrilməsi ilə xarakterizə olunan yeni tarixi şəraitdə Qafqazın tarixinin daha sistemli və bütün dövrlər üzrə öyrənilməsi, bu istiqamətdə yüksəkixtisaslı kadrların hazırlanması elmi və ictimai-siyasi əhəmiyyətə malikdir.

Qeyd olunanları nəzərə alaraq Rəyasət Heyətinin qərarı ilə daxili imkanlar hesabına AMEA-nın Qafqazşünaslıq İnstitutunun Qafqaz tarixi (qədim dövrlərdən XX əsrədək) şöbəsinin bazasında Qafqaz tarixi şöbəsinin, Qafqaz tarixi və siyasəti (XX-XXI əsrlər) şöbəsinin bazasında Qafqaz ölkələrinin beynəlxalq əlaqələri şöbəsinin yaradılması haqqında qərar qəbul olunub.

İclasda AMEA-nın Mərkəzi Elmi Kitabxanasında Biblioqrafiya şöbəsinin bazasında daxili imkanlar hesabına yeni şöbələrin yaradılması haqqında məsələ də müzakirə edilib.

Akademik İsa Həbibbəyli bildirib ki, AMEA-da son dövrlərdə həyata keçirilən islahatların mühüm tərəflərindən birini elektron elmin inkişafı, sənədlərin rəqəmsallaşdırılması, arxiv sənədlərinin elektron bazasının yaradılması istiqamətində atılan addımlar təşkil etməkdədir. AMEA-nın Mərkəzi Elmi Kitabxanası tərəfindən göstərilən xidmətlərin elektron formada təşkili, xidmət prosesinin və elektron xidmətlərin göstərilməsinin cari vəziyyəti, məlumatların toplanılması, sistemləşdirilməsi, parametrlər üzrə axtarılması və təhlilində ortaya çıxan məsələlər MEK-in elmi informasiya təminatının müasir tələblər səviyyəsində yenidən təşkili, bəzi şöbələrin fəaliyyət istiqamətinin konkretləşdirilməsi və adında dəyişiklik edilməsi zərurətini yaradır. Qeyd edib ki, bu istiqamətdə fəaliyyətin daha da genişləndirilməsi və sistemliliyin təmin edilməsi məqsədi ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında biblioqrafiya xidmətinin elektronlaşdırılmasına xüsusi ehtiyac var.

İclasda qeyd olunanları nəzərə alaraq, AMEA-nın Mərkəzi Elmi Kitabxanasında Biblioqrafiya şöbəsinin bazasında daxili imkanlar hesabına Biblioqrafik resursların yaradılması şöbəsi və Biblioqrafik və elektron informasiya xidməti şöbəsi yaradılıb.

Eyni zamanda iclasda AMEA Rəyasət Heyəti aparatının Nəqliyyat xidməti şöbəsinin Əsasnaməsi təsdiq edilib.

Sonda bir sıra kadr məsələlərinə baxılıb. Filologiya elmləri doktoru Əzizağa Nəcəfov AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix elmləri doktoru Zaur Həsənov isə AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun elmi işlər üzrə direktor müavini vəzifəsinə təsdiqləniblər.

İclasda qeyd olunan məsələlər ətrafında akademiklər Arif Həşimov, İradə Hüseynova, Gövhər Baxşəliyeva, professorlar İlham Məmmədzadə, Rəna Mirzəzadə, texnika üzrə fəlsəfə doktoru Hüseyn Hüseynov və başqaları çıxış edərək fikir və təkliflərini səsləndiriblər.

Akademik İsa Həbibbəyli AMEA-da aparılan struktur islahatlarının müstəqil Azərbaycan dövlətinin maraqları və çağırışlarına, həmçinin dünya elminin prioritetlərinə uyğun olaraq aparıldığını bildirib və yenilənən Akademiya istiqamətində atılan addımların bundan sonra da davam etdiriləcəyini deyib.

İclasın sonunda bir sıra cari məsələlər müzakirə olunub.

# Akademik İsa Həbibbəyli pakistanlı nizamişünas alimlə görüşüb

**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli ölkəmizdə səfərdə olan pakistanlı alim dahi Azərbaycan şairi Nizami Gəncəvi irsinin tədqiqatçısı, Pakistan İslam Respublikasının Lahor Dövlət Kollec Universitetinin Urdu dili və ədəbiyyatı bölməsinin dosenti, həmin universitetin "Məclisi İqbal" (Majilis İqbal) ədəbi məclisinin rəhbəri doktor Safeer Hydarla görüşüb.**



Azərbaycanla Pakistan arasında genişlənməkdə olan elmi əməkdaşlığın böyük əhəmiyyət kəsb etdiyini bildirən akademik İsa Həbibbəyli AMEA-nın bir sıra elmi-tədqiqat müəssisələrinin dost ölkənin elmi qurumları ilə sıx əlaqələrinin yaradıldığını vurğulayıb. Qarşılıqlı elmi-ədəbi əməkdaşlıq əlaqələrinin yüksələn xətlə inkişaf mərhələsində olduğunu diqqətə çatdıran AMEA rəhbəri Pakistanda Azərbaycan yazıçılarının, ölkəmizdə isə dost ölkənin ədəbi simalarının tanıdılması istiqamətində aparılan işlərdən danışıb. AMEA-nın yaxından iştirakı ilə Pakistan Ədəbiyyat Akademiyası, Lahor Dövlət Kollec Universiteti və Azərbaycanın Pakistandakı Səfirliyi tərəfindən "Kitabi-Dədə Qorqud" dastanının, Nizami Gəncəvi haqqında monoqrafik tədqiqat əsərinin, Cəlil Məmmədquluzadənin seçilmiş hekayələrinin qardaş ölkədə urdu dilində çap olunduğunu qeyd edən akademik İsa Həbibbəyli diqqətə çatdırıb ki, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən görkəmli Pakistan şairi və filosofu Məhəmməd İqbalın seçilmiş əsərləri Azərbaycan dilində nəşr olunub, eləcə də böyük söz ustadının yaradıcılığını əhatə edən monoqrafik tədqiqat əsəri işıq üzü görüb. Pakistanlı alimlərdən professor Yusuf Kuşk, professor Saima İram və professor-doktor Almaz Xanımın urdu dilində tərcümə və nəşr sahəsində fəaliyyətini yüksək qiymətləndirən akademik İsa Həbibbəyli bu istiqamətdə işlərin qarşılıqlı olaraq bu gün də uğurla davam etdirildiyini xüsusi vurğulayıb.

Akademik İsa Həbibbəyli pakistanlı alim Safeer Hydarın dahi Azərbaycan şairi Nizami Gəncəvinin həyat və yaradıcılığı barədə tədqiqatlarını yüksək dəyərləndirib, bu sahədə qarşılıqlı elmi əməkdaşlıq perspektivlərini diqqətə çatdırıb.

Lahor Dövlət Kollec Universitetinin Urdu dili və ədəbiyyatı bölməsinin dosenti, həmin universitetin "Məclisi İqbal" (Majilis İqbal) ədəbi məclisinin rəhbəri doktor Safeer Hydar Pakistanda böyük Azərbaycan şairi Nizami Gəncəvi irsinin tədqiqi barədə ətraflı məlumat verib. Azərbaycan yazıçılarının əsərlərinin Pakistanda urdu dilində nəşr edilməsinin əhəmiyyətini xüsusi vurğulayan nizamişünas alim hazırda ölkəmizlə bağlı iki kitab üzərində çalışdığını diqqətə çatdırıb.

Səfər çərçivəsində Gəncədə dahi Azərbaycan şairi Nizami Gəncəvinin məqbərəsini, eləcə də AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda fəaliyyət göstərən Pakistan Ədəbiyyatı Mərkəzini ziyarət edən pakistanlı alim AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunda keçiriləcək beynəlxalq elmi konfransda Pakistan-Azərbaycan elmi əlaqələri mövzusunda məruzə ilə çıxış edəcəyi barədə də məlumat verib.

Görüşdə AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru fəlsəfə elmləri doktoru, professor İlham Məmmədzadə də iştirak edib.

# Məhəmməd Füzuli və Şərq folkloru

**Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) "Məhəmməd Füzuli və Şərq folkloru" mövzusunda respublika elmi konfransı keçirilib. Konfrans dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530 illiyinə həsr edilib.**





Folklor İnstitutunun təşkilatçılığı ilə keçirilən tədbirdə İraq Strateji Araşdırmalar Mərkəzinin müdiri, İraq-Azərbaycan Dostluq Cəmiyyətinin sədri doktor Mutaz Muhyi Əbdülhəmid, Türkman Mədəniyyət Mərkəzinin müdiri, "Türkmən eli" jurnalının baş redaktoru doktor Sabah Kərküklü, eləcə də Özbəkistanın ali təhsil müəssisələrinin nümayəndələri, Ədəbiyyat, Folklor və Dilçilik institutlarının əməkdaşları iştirak ediblər.

Konfransda çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli akademiyada müxtəlif ölkə nümayəndələrinin iştirakı ilə böyük Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinə həsr olunan silsilə tədbirlər keçirildiyini söyləyib.

Akademik İsa Həbibbəyli son illərdə türk dövlətləri arasında əlaqələrin bütün sahələrdə intensiv xarakter aldığını və dövrün tələblərinə, baş verən proseslərə uyğun olaraq sürətlə inkişaf etdiyini bildirib. Əlavə edib ki, Azərbaycan həmişə Türk dünyasının sıx birləşməsinə töhfə verib və bundan sonra da türk dövlətlərinin birliyi amallarına sadiq qalacaq.

AMEA prezidenti İsa Həbibbəyli bugünkü konfransın Məhəmməd Füzulini yeni nəsillərə azərbaycançılıq mövqeyindən çatdırmaq, şairin yaradıcılığını daha dərindən şərh etmək və dünyaya tanıtmaq baxımından elmi əhəmiyyətini vurğulayıb. O, görkəmli ədibin folklorla əlaqələrinin sovet dövründə dərindən öyrənildiyini deyərək, Məhəmməd Füzuli və folklor mövzusunda çoxsaylı məqalələrin çap edildiyini, dissertasiya işlərinin yazıldığını bildirib. İsa Həbibbəyli çıxışının sonunda "Məhəmməd Füzuli və Şərq folkloru" mövzusunda keçirilən tədbirin şairin bənzərsiz əsərlərinin daha geniş miqyasda tədqiqinə imkanlar yaradacağına, Məhəmməd Füzuli ilə bağlı yeni araşdırmaların meydana çıxacağına, onun şəxsiyyətinin miqyasının yaratdığı imkanlar səviyyəsində Türk dünyası ilə, qardaş türkman və İraq xalqları ilə elmi əlaqələrinin genişlənməsinə xidmət edəcəyinə inamını ifadə edib.

Daha sonra AMEA-nın Folklor İnstitutunun direktoru akademik Muxtar İmanov görkəmli Azərbaycan şairi Məhəmməd Füzulinin ədəbiyyatımızdakı müstəsna yerindən danışıb, tədbirin ölkə rəhbərinin "Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında" 2024-cü il 25 yanvar tarixli Sərəncamına əsasən keçirildiyini diqqətə çatdırıb. O, sözügedən Sərəncamın Füzuli yaradıcılığını folklor müstəvisində yenidən nəzərdən keçirməyə, ədibin irsini elmi-nəzəri baxımdan yenidən araşdırmağa imkan verdiyini bildirib.

Məhəmməd Füzulinin dünya və Şərq ədəbiyyatı qarşısında tarixi xidmətlərindən danışan alim onun Azərbaycan ədəbi dilini yüksək zirvəyə çatdırdığını və bu işi xalq dilinin əsasında gördüyünü vurğulayıb. Qeyd edib ki, Füzuli yaradıcılığında Azərbaycan türkcəsinin bütün qayda-qanunları, eləcə də ideallaşmış ifadələr sistemi qabarıq şəkildə özünü göstərir və bu, ədibin üslubuna əhəmiyyətli təsir edir.

Akademik Muxtar İmanov Füzulinin "Kitabi-Dədə Qorqud" dastanı ilə səsləşən misralarından nümunələr səsləndirərək, burada eyni üslubi yanaşmanın mövcud olduğunu və bu yanaşmanın təkcə dil səviyyəsində deyil, daha da genişlənərək bayatı, əfsanə, rəvayət, nağıl və dastan poetikası səviyyəsində özünü göstərdiyini bildirib.

İnstitut direktoru böyük söz ustadı Məhəmməd Füzulinin bayatı poetikası, ədəbi estetikası, aşiqanə qəzəlləri, sufizmlə əlaqəsi və eşq fəlsəfəsindən bəhs edib, ədibin dünya miqyasında romantik sənətin böyük nümayəndəsi olduğunu qeyd edib.

Sonra professor Füzuli Bayat "Füzuli yaradıcılığında Orta Şərq və İslam mifləri", Sabah Abdullah Kərküklü "Füzuli və İraq-türkman folkloru", dosent Sərxan Xavəri "Məhəmməd Füzuli: zamanın poetik "stop kadr" anı", Özbəkistanın Ürgənc Dövlət Universitetinin professoru Nəsibə Sabirova "Füzuli və folklor" və professor Ataəmi Mirzəyev "Füzuli yaradıcılığında folklor nümunələrindən istifadənin təzahür formaları" mövzusunda məruzələrlə çıxış ediblər.

Konfrans işini bölmə iclaslarında davam etdirib. Bölmə iclaslarında Məhəmməd Füzulinin zəngin bədii yaradıcılığında folklor qaynaqlarının, milli-mənəvi dəyərlərin araşdırılmasını əhatə edən müxtəlif mövzulu məruzələr dinlənilib, geniş müzakirələr aparılıb.

# Naxçıvanda akademik Rəhim Rəhimovun 100 illik yubileyi qeyd olunub



**Azərbaycan Milli Elmlər Akademiyası, Naxçıvan Dövlət Universiteti və Azərbaycan Milli Onkologiya Mərkəzinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Universitetində Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi, "Şöhrət" ordenli Rəhim Rəhimovun anadan olmasının 100 illiyinə həsr edilmiş "Nəsillərə nümunə" adlı yubiley konfransı keçirilib.**

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və konfrans iştirakçıları əvvəlcə akademik Rəhim Rəhimovun universitetin konservatoriya binasının qarşısında qoyulmuş büstü önündə xatirə fotosu çəkdiriblər. Sonra qonaqlar incəsənət fakültəsinin tələbə və müəllimlərinin yaradıcılığından ibarət rəsm əsərləri ilə tanış olublar.

Daha sonra Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi Rəhim Rəhimovun mənalı ömür yolunu, zəngin elmi və tibb fəaliyyətini əks etdirən sərgiyə baxış keçirilib. Sərgidə nümayiş etdirilən elmi əsərlər Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin kitabxanasına təqdim olunub.

Konservatoriya binasının akt zalında işə başlayan "Nəsillərə nümunə" adlı yubiley konfransında əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli konfransın işinə uğurlar arzulayaraq bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi dövlət səviyyəsində geniş qeyd olunur. Təbii ki, yubiley ilində Naxçıvanın yetirdiyi görkəmli dövlət xadimlərinin, alim, ziyalı və ədiblərin, sənət adamlarının da ömür yoluna, xalqımız və dövlətimiz qarşısındakı xidmətlərinə nəzər salınır. Bu mənada, akademik Rəhim Rəhimovun anadan olmasının 100 illiyinin Naxçıvanda qeyd olunması əhəmiyyətlidir.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev vurğulayıb ki, Azərbaycan tibb elminə mühüm töhfələr vermiş böyük elm adamının nümunəvi həyat yoluna həsr olunmuş konfransın təşkili universitet həyatında əlamətdar hadisədir.

Universitetin İncəsənət fakültəsinin müəllimi, Əməkdar rəssam Cavid İsmayılovun akademik Rəhim Rəhimova həsr etdiyi portreti görkəmli alimin oğlu, tibb elmləri doktoru, professor Çingiz Rəhimova təqdim edilib.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli bildirib ki, 60 ilə yaxın Azərbaycan tibb elminə şərəflə xidmət etmiş alim həm də böyük elm və səhiyyə təşkilatçısıdır. Respublikamızda onkologiyanın inkişafında misilsiz xidmətləri olan alim bu sahədə ilk peşəkar mütəxəssislərin hazırlanması və onkoloji sahənin maddi-texniki bazasının formalaşması istiqamətində əvəzsiz işlər görüb.

Konfransda AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynova "Akademik Rəhim Rəhimovun elmi-nəzəri və elmi-təşkilati fəaliyyəti" və Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin dekanı, tibb üzrə fəlsəfə doktoru, dosent İlhamə Mustafayeva "Naxçıvan məktəbinin yetişdirdiyi tibb xadimləri və davamçıları" mövzularında məruzə ediblər.

Sonra Milli Onkologiya Mərkəzinin baş həkimi tibb üzrə fəlsəfə doktoru Azad Kərimli, Azərbaycan Tibb Universitetinin kafedra müdiri AMEA-nın müxbir üzvü Sudeyf İmamverdiyev və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi, akademik Asəf Hacıyevin çıxışları dinlənilib, akademik Rəhim Rəhimovun zəngin həyat yolundan bəhs edən film nümayiş olunub.

Konfransda Naxçıvan Dövlət Universitetinin qabaqcıl tələbələrindən Əli Ələkbərliyə "Rəhim Rəhimov adına Təqaüd" təqdim olunub.

Akademik Rəhim Rəhimovun oğlu Azərbaycan Tibb Universitetinin kafedra müdiri, tibb elmləri doktoru, professor Çingiz Rəhimov ailə üzvləri adından konfransın təşkilinə görə minnətdarlıq edib.

# AMEA nümayəndələri Ordubad şəhərində "Elm parkı"nın salınması mərasimində iştirak ediblər

**Xəbər verdiyimiz kimi Azərbaycan Milli Elmlər Akademiyası, Naxçıvan Dövlət Universiteti və Azərbaycan Milli Onkologiya Mərkəzinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Universitetində Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi, "Şöhrət" ordenli Rəhim Rəhimovun anadan olmasının 100 illiyinə həsr edilmiş "Nəsillərə nümunə" adlı yubiley konfransı keçirilib.**



Konfrans çərçivəsində alimin doğulduğu Ordubad şəhərində adına verilmiş küçədə "Elm parkı" salınıb.

Mərasimdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, AMEA Rəyasət Heyətinin üzvləri, Rəyasət Heyəti aparatının şöbə müdirləri və Akademiyanın elmi müəssisə və təşkilatlarından nümayəndələr də iştirak ediblər.

Həmçinin AMEA nümayəndələri alimin vaxtilə yaşadığı evi də ziyarət ediblər.

# Akademiyada Yaponiyada yaşayan görkəmli azərbaycanlı alim Xəlil Kələntərlə görüş






Xəlil Kələntər


Xaqani Abdullayev


Fariz İmranov


Kamal Əsgərov


Faiq Ələsgərov

**Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətində Yaponiyada yaşayan dünya şöhrətli azərbaycanlı alim, yeni nəsil displey ekranlar sahəsində tanınmış mühəndis, professor Xəlil Kələntərlə görüş keçirilib.**

Görüşdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Milli Aviasiya Akademiyasının (MAA) prorektoru professor Xaqani Abdullayev, vaxtilə Yaponiyada fəaliyyət göstərmiş görkəmli jurnalist Vüqar Ağayev, eləcə də MAA-nın, AMEA Rəyasət Heyətinin, Akademiyanın elmi müəssisə və təşkilatlarındakı Elektron xidmətlər şöbələrinin əməkdaşları iştirak ediblər.

Görüşdə çıxış edən **akademik İsa Həbibbəyli** Akademiyada başladılan yeniləşmə hərəkatının gedişatından, dövlət başçısının və müasir dünya elminin çağırışlarına uyğun olaraq həyata keçirilən struktur islahatlarından danışıb. Həmçinin Akademiyada sənədlərin rəqəmsallaşdırılması, arxiv sənədlərinin elektron bazasının yaradılması, elektron sənəd dövriyyəsinin tətbiq edilməsi, alimlərin elektron resurslardan səmərəli istifadəsinin təmin olunması məqsədilə elektron xidmətlər sahəsində aparılan genişmiqyaslı islahatları diqqətə çatdırıb. Qısa müddətdə bu sahədə önəmli uğurların əldə edildiyini, AMEA-nın dövri elmi jurnallarına və alimlərimizin məqalələrinə DOİ identifikatorunun verildiyini, Akademiyanın elmi müəssisələrinin əməkdaşlarına "Vikipediya" təlimlərinin keçirildiyini, "Google Scholar", ORCİD və digər akademik sosial şəbəkələrdə alimlərin yeni profillərinin yaradıldığını söyləyib.

AMEA rəhbəri geniş vüsət almış elektron hərəkatın daha da genişləndirilməsi məqsədilə Türkiyənin Elmi və Texnoloji Tədqiqat Şurası (TÜBİTAK) ilə əməkdaşlıq müqaviləsinin imzalandığını, AMEA-TÜBİTAK Koordinasiya Mərkəzinin açıldığını bildirib, bu istiqamətdə fəaliyyətin davam etdiriləcəyini diqqətə çatdırıb.

Akademik İsa Həbibbəyli AMEA ilə yüksək texnologiyalar üzrə əhəmiyyətli nəticələrə imza atmış Milli Aviasiya Akademiyası arasında da elmi əlaqələrin inkişaf etdirildiyini, tədqiqat və layihələrdə birgə iştirakın önəmini xüsusi vurğulayıb.

Sonra **AMEA Rəyasət Heyəti aparatının "Elektron Akademiya" şöbəsinin müdiri riyaziyyat üzrə fəlsəfə doktoru dosent Fariz İmranov** "AMEA-da elektron hərəkat və yeni çağırışlar" mövzusunda təqdimatla çıxış edib. Şöbə müdiri Akademiyada elektronlaşma sahəsində görülən işlər barədə ətraflı məlumat verib. AMEA-da çap olunan elmi jurnalların elektron resurslarının yaradılmasının cari vəziyyəti, onların beynəlxalq elmi bazalara daxil edilməsi, həmçinin Milli Dərgi Park elektron baza reyestrinin yaradılması, eləcə də Akademik sosial şəbəkələrlə bağlı görülən işlərdən danışıb.

**Yaponiyada yaşayan dünya şöhrətli azərbaycanlı alim Xəlil Kələntər** isə apardığı elmi-tədqiqat işləri, qazandığı patent və mükafatlar, imza atdığı elmi yeniliklər barədə ətraflı məlumat verib. Azərbaycan alimləri, xüsusən də AMEA-da sahə mütəxəssisləri ilə birgə iş birliyinin yaradılmasından məmnunluğunu ifadə edib. Xəlil Kələntər AMEA və Milli Aviasiya Akademiyası ilə birgə müştərək layihələrin həyata keçirilməsinə maraq göstərdiyini, bilik və bacarığının yerli alimlərimizin işlərinin tətbiqində yardımçı olmaqdan şərəf duyduğunu bildirib.

Dünya şöhrətli alim Xəlil Kələntər görüş iştirakçıları tərəfindən səsləndirilən çoxsaylı sualları cavablandırıb.

**Milli Aviasiya Akademiyasının prorektoru, professor Xaqani Abdullayev** elektronlaşma istiqamətində Azərbaycan Milli Elmlər Akademiyası ilə ortaq layihələrin həyata keçirilməsinin əhəmiyyətindən danışıb. Bu sahədə xaricdə yaşayan həmvətənlərimizi də cəlb etməyin faydalı olacağını diqqətə çatdırıb. Təmsil etdiyi ali təhsil müəssisəsi tərəfindən AMEA ilə Milli Aviasiya Akademiyası arasında imzalanması nəzərdə tutulan əməkdaşlıq müqaviləsinin əsas müddəalarını nəzərə çatdırıb.

Tədbirdə **Milli Aviasiya Akademiyasının Elm istehsalat birliyinin baş direktoru Kamal Əsgərov, MAA-nın şöbə rəisi Faiq Ələsgərov, AMEA Arxeologiya və Antropologiya İnstitutunun Elektron xidmətlər şöbəsinin müdiri Tural Əbdürəhmanov** və başqaları çıxış edərək elektron resurs və xidmətlər istiqamətində görüləcək işlər barədə təklif və mülahizələrini səsləndiriblər.

Görüşdə rəqəmsal elektronlaşma, elektron kataloqların hazırlanması, elmi bazaların hazırkı vəziyyəti, elektron xidmətlərin təşkili, süni intellektin humanitar və ictimai elmlərə tətbiqi və s. məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Yaponiyada yaşayan Azərbaycan alimi professor Xəlil Kələntərə xatirə hədiyyəsi təqdim edib.

# AMEA-da YAP ərazi təşkilatlarının sədri vəzifəsinə seçkilər keçirilib

**AMEA Rəyasət Heyətinin və Yeni Azərbaycan Partiyası (YAP) Yasamal rayon təşkilatının birgə təşkilatçılığı ilə Akademiyanın bir sıra elmi müəssisələrində YAP ilk ərazi partiya təşkilatlarının sədri vəzifəsinə seçki keçirilib.**



İclası giriş sözü ilə açan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Yeni Azərbaycan Partiyasının müasir və müstəqil Azərbaycan dövlətinin tarixində mühüm yer tutduğunu, ötən əsrin 90-cı illərində dövlət müstəqilliyimizin qorunması və möhkəmlənməsində partiyanın ideya və məramının, həmçinin fəallarının Ulu Öndər Heydər Əliyevin liderliyində xüsusi rol oynadıqlarını söyləyib. AMEA rəhbəri bildirib ki, Yeni Azərbaycan Partiyası və onun fəalları hər zaman dövlətimiz üçün xüsusi əhəmiyyət kəsb edən məsələlərdə öndə gedib və bu gün Milli Elmlər Akademiyasının ilk ərazi partiya təşkilatları da bu prosesə özlərinin töhfələrini verməkdədirlər.

AMEA-nın bütün elmi müəssisə və təşkilatlarında YAP ilk ərazi partiya təşkilatlarının yaradıldığını diqqətə çatdıran akademik İsa Həbibbəyli Akademiyanın YAP Yasamal rayon təşkilatı ilə sıx əməkdaşlıq etdiyini, mütəmadi olaraq birgə dövlət əhəmiyyətli tədbirlərin həyata keçirildiyini vurğulayıb. Qeyd edib ki, AMEA-nın YAP ilk ərazi partiya təşkilatları ideoloji məsələlərdə daim öz mövqelərini meydana qoyur, Prezident İlham Əliyevin liderliyində 44 günlük Vətən müharibəsində qazanılmış möhtəşəm qələbəni, eləcə də bir gündən də az müddətə dövlət suverenliyimizin tam bərpası ilə başa çatdırılmış antiterror tədbirlərini, həmçinin Xankəndi, Xocalı və digər işğaldan azad olunmuş ərazilərimizdə Dövlət Bayrağımızın ucaldılmasını elmi əsaslarla tədqiq edərək gənc nəslin vətənpərvər ruhda tərbiyə olunmasında fəal mövqe ilə çıxış edirlər.

"Torpaqlarımızın işğaldan azad edilməsi və tarixi ədalətin bərpa olunması ilə Ali Baş Komandan İlham Əliyevin adı Azərbaycanın çoxəsrlik dövlətçilik tarixinə qızıl hərflərlə yazıldı. Elm xadimləri mediada, sosial şəbəkələrdə və iştirak etdikləri konfranslarda Prezident İlham Əliyevin liderliyində əldə etdiyimiz möhtəşəm zəfərləri təbliğ etməklə ideoloji cəbhədə aktiv rol oynayırlar", - deyə akademik İsa Həbibbəyli bildirib.

Həmçinin qeyd edib ki, Yeni Azərbaycan Partiyasının ideologiyasında yetişmiş və Akademiyada siyasi-ideoloji işin təşkilində mühüm rol oynamış siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Sənan Həsənov AMEA Azad Həmkarlar İttifaqının sədri, texnika üzrə fəlsəfə doktoru, dosent Hüseyn Hüseynov isə AMEA-nın Mərkəzi Elmi Kitabxanasının direktoru vəzifəsinə təyin olunublar və vəzifələrinin öhdəsindən layiqincə gəlirlər.

Akademik İsa Həbibbəyli Yeni Azərbaycan Partiyasının işində fəallığı ilə seçilən elm adamları və mütəxəssislərin önə çəkilməsi prosesinin bundan sonra da davam etdiriləcəyini söyləyib.

Sonra çıxış edən YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev partiyanın təşkilatlanmasında və siyasi-ideoloji cəbhədə AMEA-nın ərazi ilk təşkilatlarının və tanınmış alimlərin fəal və ardıcıl iş apardıqlarını diqqətə çatdırıb. Milli Elmlər Akademiyasının ilk ərazi partiya təşkilatlarının YAP Yasamal rayon təşkilatının tədbirlərində fəal iştirak etdiklərini, birgə tədbirlərin keçirildiyini söyləyib. Qeyd edib ki, 2023-cü ildə "Heydər Əliyev İli" ilə əlaqədar Akademiyada da keçirilən tədbirlər və çap olunan kitablar ölkə miqyasında rəğbətlə qarşılanıb.

Daha sonra iclasda YAP Yasamal rayon AMEA Rəyasət Heyəti üzrə ilk ərazi partiya təşkilatının, YAP Yasamal rayon AMEA Mərkəzi Elmi Kitabxana üzrə ilk ərazi partiya təşkilatının və YAP Yasamal rayon AMEA Fəlsəfə və Sosiologiya İnstitutu üzrə ilk ərazi partiya təşkilatının sədri vəzifəsinə seçkilər keçirilib.

YAP Yasamal rayon AMEA Rəyasət Heyəti üzrə ilk ərazi partiya təşkilatının sədri vəzifəsinə AMEA-nın Rəyasət Heyəti aparatının Elm və təhsil şöbəsi müdirinin müavini, fəlsəfə üzrə fəlsəfə doktoru Vüsal Zülfüqarovun, YAP Yasamal rayon AMEA Mərkəzi Elmi Kitabxana üzrə ilk ərazi partiya təşkilatının sədri vəzifəsinə AMEA-nın Mərkəzi Elmi Kitabxanasının direktoru, texnika üzrə fəlsəfə doktoru, dosent Hüseyn Hüseynovun və YAP Yasamal rayon AMEA Fəlsəfə və Sosiologiya İnstitutu üzrə ilk ərazi partiya təşkilatının sədri vəzifəsinə isə Fəlsəfə və Sosiologiya İnstitutunun Davamlı inkişafın fəlsəfəsi və sosiologiyası şöbəsinin aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Şölət Zeynalovun namizədliyi irəli sürülüb.

Akademik İsa Həbibbəyli namizədlikləri irəli sürülmüş şəxslərin tərcümeyi-hallarını tədbir iştirakçılarının diqqətinə çatdırıb və onların vəzifələrinin öhdəsindən layiqincə gələcəklərinə inamını ifadə edib.

Həmçinin AMEA-nın birinci vitse-prezidenti v.i.e. akademik Arif Həşimov, AMEA-nın Azad Həmkarlar İttifaqının sədri siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Sənan Həsənov və AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru f.e.d., professor İlham Məmmədzadə çıxış edərək namizədlərin yüksək ideya-siyasi və mənəvi keyfiyyətlərindən danışıb, Akademiyada partiya işinin təşkilinə mühüm töhfə verəcəklərini bildiriblər.

Daha sonra açıq səsvermə keçirilib və qeyd olunan namizədlər YAP ilk ərazi partiya təşkilatlarının sədri vəzifələrinə seçiliblər.

YAP Yasamal rayon AMEA Fəlsəfə və Sosiologiya İnstitutu üzrə ilk ərazi partiya təşkilatının sədri seçilən fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Şölət Zeynalov göstərilən yüksək etimada görə minnətdarlığını bildirib və yeni sədr seçilənlərin vəzifələrinin öhdəsindən layiqincə gəlmək üçün var qüvvə ilə çalışacaqlarını bildirib.

YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev isə yeni sədr seçilmiş şəxslərə uğurlar arzulayıb və onların fəaliyyətinə bundan sonra da zəruri dəstəyin göstəriləcəyini söyləyib.

Sonda çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli rəhbərlik etdiyi akademik qurumda elmi-tədqiqat işləri ilə birlikdə siyasi-ideoloji işin də daim diqqət mərkəzində saxlanılacağını bildirib.

# Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının məlumatı

**Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasından bildiriblər ki, 2024-cü ilin Dövlət Mükafatlarına aşağıdakı işlər təqdim edilmişdir.**

**Elm sahəsində:**

1. **Adil Qəribov** - "Atom-hidrogen energetikasında termo və radiasion-heterogen proseslər" - Rusiyada nəşr olunmuş monoqrafiya.
**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Radiasiya Problemləri İnstitutu təqdim etmişdir.**
2. **Könül Bünyadzadə** - "Sufi fenomenologiya" - monoqrafiya (iki cilddə).
**Azərbaycan Milli Elmlər Akademiyasının Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu təqdim etmişdir.**
3. **Fatimə Mustafayeva, Nəcəf Qəhrəmanov** - "Polietilen əsasında odadavamlı kompozit materialların alınması, tədqiqi və emalı" - monoqrafiya.
**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Polimer Materialları İnstitutu təqdim etmişdir.**
4. **Qüdrət Kəlbəliyev, DilqəmTağıyev, Sakit Rəsulov** - "Qeyri Nyuton neftlərinin və neft dispers sistemlərinin reologiyası və mexanika sahəsində fundamental tədqiqatlar".
**Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti təqdim etmişdir.**
5. **İradə Hüseynova, Samirə Rüstəmova, Durna Əliyeva, Tofiq Allahverdiyev, Atabəy Cahangirov** - "Rəqəmsal və yeni genom texnologiyalarından istifadə etməklə buğdanın quraqlığa davamlılıq mexanizmlərinin araşdırılması, yeni genotiplərin yaradılması və tətbiqi".
**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu təqdim etmişdir.**
6. **Nizami Cəfərov** - "Heydər Əliyev: dil, ədəbiyyat və incəsənət" - kitab.
**Bakı Dövlət Universiteti təqdim etmişdir.**
7. **Natiq Cavadov, Elçin İsgəndərzadə, Hikmət Əsədov** - "Müasir hərbi döyüş sistemlərinin effektivliyinin yüksəldilməsi üzrə kompleks elmi tədqiqatlar".
**Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyi təqdim etmişdir.**
8. **Mahirə Hüseynova** - "Ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyası" - kitab.
**Azərbaycan Dövlət Pedaqoji Universiteti təqdim etmişdir.**
9. **Ziyad Səmədzadə** - "XX əsrdə və müstəqillik dövründə Azərbaycan iqtisadiyyatı və onun inkişafının aktual problemləri"- silsilə əsərlər.
**Azərbaycan İqtisadçılar İttifaqı təqdim etmişdir.**
10. **Sadiq Qurbanov** - "Zamana sığmayan lider. Heydər Əliyevin idarəçilik və varislik fəlsəfəsi".
**Azərbaycan Dövlət İqtisad Universiteti təqdim etmişdir.**
11. **Qurban Yetirmişli, Fəxrəddin Qədirov, Səbinə Kazımova, Rafiq Səfərov** - "Azərbaycan ərazisində seysmik və geodinamik aktivliyin monitorinqi üçün rəqəmsal üçsəviyyəli texnologiya (yer səthi, səthə yaxın, peyk) sisteminin yaradılması və tətbiqi: nəticələr və perspektivlər" - 2000-2023-cü illərin elmi nəşrlər silsiləsi.
**Azərbaycan Milli Elmlər Akademiyasının Respublika Seysmoloji Xidmət Mərkəzi təqdim etmişdir.**

**Texnika sahəsində:**

12. **İlqar Nəzərov, Məmmədsaleh Əliyev, Rafiq Hüseynov** - "Hərbi təyinatlı sursatların istehsalı və utilizasiyası sahəsində aparılmış elmi-tədqiqat və təcrübi-konstruktor işlərinin nəticələri əsasında müasir istehsal sahələrinin yaradılması".
**Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin "Şərq İstehsal Birliyi" MMC təqdim etmişdir.**
13. **Vaqif Fərzəliyev, Həqiqət Cavadova, Əfsun Sucayev, Vasif Abbasov, Səxavət Rüstəmov** - "Xüsusi təyinatlı sürtkü yağlarının yaradılması və istehsalının təşkili" - kompleks elmi-texniki iş.
**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutu təqdim etmişdir.**
14. **Vaqif Məhərrəmov** - "Kosmik obyektlərin infraqırmızı müşahidə texnikası" (rus dilində nəşr) "Техника инфракрасных наблюдений космических объектов".
**Azərbaycan Texniki Universiteti təqdim etmişdir.**

**Memarlıq sahəsində:**

15. **Rayihə Əmənzadə** - "Gəncə şəhərinin memarlıq salnaməsi. XII-XIX əsrlər" - kitab.
**Azərbaycan Memarlar İttifaqı təqdim etmişdir.**

**Mədəniyyət sahəsində:**

16. **Vaqif Mustafayev, Azər Quliyev** - "Həyat, deyəsən gözəldir" - bədii film.
**Azərbaycan Respublikasının Kinematoqrafçılar İttifaqı təqdim etmişdir.**
17. **Sakit Məmmədov** - "Heydər Əliyev və Qarabağ"- diptix.
**Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi təqdim etmişdir.**
18. **Ərtegin Salamzadə, Xəzər Zeynalov** - "Təsviri sənətdə Heydər Əliyev obrazı" (ingilis dilində nəşr) - kitab.
**Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutu təqdim etmişdir.**
19. **Salxab Məmmədov, Əli İbadullayev** - "Humanizmi tərənnüm edən Azərbaycan qadınları" (Fransanın Konyak şəhərində parkda Məhsəti Gəncəvinin abidəsi (2016-cı il) və Evian-le-Bən şəhərində Natəvanın abidəsi (2018-ci il).
**Azərbaycan Rəssamlar İttifaqı təqdim etmişdir.**
20. **Fuad Salayev** - "Qarabağnamə" heykəltəraşlıq kompozisiyası: Bakı şəhəri Muzey Mərkəzinin önündə ucaldılan "Səyyah" və "Müzəffər" heykəlləri.
**Azərbaycan Rəssamlıq Akademiyası təqdim etmişdir.**
21. **Eldar Mikayılzadə** - "Azərbaycan xalçası: ilmələrin rəqsi"- kitab-kataloq.
**Azərbaycan Milli İncəsənət Muzeyi təqdim etmişdir.**
22. **Mehriban Ələkbərzadə** - Son illərdə rejissorluq fəaliyyətinə görə.
**Azərbaycan Teatr Xadimləri İttifaqı təqdim etmişdir.**

**Ədəbiyyat sahəsində:**

23. **Sabir Rüstəmxanlı** - "Son illərdə yaradılan silsilə əsərlər"
**Azərbaycan Yazıçılar Birliyi təqdim etmişdir.**
24. **Yunus Oğuz** - "Cığır"- tarixi roman.
**Azərbaycanda Atatürk Mərkəzi təqdim etmişdir.**
25. **Asif Mərzili (Məmmədov)** - "Sonuncu əmr" - roman.
**Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzi təqdim etmişdir.**

Dövlət Mükafatlarına irəli sürülmüş işlərlə ictimaiyyətin geniş tanış olması və müvafiq rəylərin bildirilməsi məqsədilə idarə və təşkilatlardan, ictimai və yaradıcı birliklərdən xahiş olunur ki, yuxarıda göstərilən işlərin müzakirəsini təşkil etsinlər.

**Komissiyanın ünvanı: AZ1066, Bakı şəhəri, Lermontov küçəsi, 68.
Azərbaycan Respublikasının Nazirlər Kabineti.
E-mail: nk@nk.gov.az**

# Özbəkistanlı alim Əlyazmalar İnstitutunda



**Özbəkistan Elmlər Akademiyası Tarix İnstitutunun direktoru professor Azamat Ziyo AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun qonağı olub.**

Qonağı institutun direktoru akademik Teymur Kərimli qəbul edib. Görüşdə institutun direktor müavini dosent Əzizağa Nəcəfzadə, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, tarix ü.f.d., dosent Nigar Babaxanova, Türk dünyası əlyazmalarının tədqiqi şöbəsinin müdiri fil.e.d., dosent Aygül Hacıyeva və Ərəbdilli əlyazmaların tədqiqi şöbəsinin aparıcı elmi işçisi fəl.ü.f.d., dosent Rübabə Şirinova iştirak ediblər.

Dəyirmi masa ətrafında keçən görüşdə Əlyazmalar İnstitutu ilə Özbəkistan Elmlər Akademiyasının Tarix İnstitutu arasında elmi əlaqələrin və gələcək əməkdaşlığın perspektivləri müzakirə olunub. Professor Azamat Ziyo rəhbərlik etdiyi elmi-tədqiqat müəssisəsində 26 min əlyazmanın qorunub saxlanıldığını və onların içərisində Azərbaycana, o cümlədən, Azərbaycan müəlliflərinin əsərlərinə dair əlyazmaların da olduğunu bildirib. Əlyazmalar İnstitutu ilə elmi əlaqələrin genişlənməsi və möhkəmlənməsində maraqlı olduğunu diqqətə çatdıran alim qonağı olduğu elmi-tədqiqat müəssisəsində qorunan Özbəkistan xalqının tarixinə dair əlyazmaların tədqiqi ilə bağlı birgə əməkdaşlıq müqaviləsinin imzalanması təklifini irəli sürüb ki, bu təklif akademik Teymur Kərimli tərəfindən qəbul olunub.

Görüş əsnasında institutun direktoru qonağa Əlyazmalar İnstitutunda qorunan, tarixə və coğrafiyaya dair Türkdilli və Farsdilli əlyazmaların kataloqunu təqdim edib, "Azərbaycan Multidissiplinar əlyazması: Xəzinədən incilər" kitabının ingiliscə versiyasını hədiyyə edib. Prof. Azamat Ziyo da öz növbəsində akademik Teymur Kərimliyə Özbəkistan milli ornametini özündə əks etdirən ənənəvi naxışlarla bəzədilmiş dekorativ nümunə hədiyyə edib.

Görüşdən sonra özbək alim Əlyazmalar İnstitutunun Ekspozisiya zalı ilə tanış olub. Tanışlıq zamanı Əlyazmaların elmi ekspozisiyası və təqdimi şöbəsinin müdiri tarix ü.f.d., dosent Nigar Babaxanova qonağa Əlyazmalar İnstitutunda mühafizə olunan özbək yazılı abidələri, zalda nümayiş olunan nadir eksponatlar və əlyazma nüsxələri haqda məlumat verib.

Daha sonra prof. Azamat Ziyo Əlyazmalar İnstitutunun fondları ilə tanış olub. İnstitutun baş mühafizi fil.ü.f.d., dosent Səbinə Əhmədova ona burada qorunan nadir əlyazmalar və materiallar haqqında ətraflı məlumat verib.

# Şəki Regional Elmi Mərkəzinin əməkdaşları elmi ekspedisiyada

**AMEA-nın Şəki Regional Elmi Mərkəzinin Landşaftşünaslıq şöbəsinin əməkdaşları-şöbə müdiri geol-min.ü.f.d. Hüseyn Mustafabəyli və Saleh Bəşirov, Ekoloji coğrafiya şöbəsinin əməkdaşı Elvin Qarayev tərəfindən şöbələrarası əməkdaşlıq çərçivəsində Qəbələ rayonunda Dəmiraparançay, Türyançay yataqları və ətraf ərazilərdə monitorinq işləri aparılıb.**



Mühitin ekoloji vəziyyəti tədqiq edilib, landşaftlarda baş verən dəyişmələrin analizlər əsasında öyrənilməsi məqsədilə qeyd olunan ərazilərdən müxtəlif çay çöküntüləri və torpaq nümunələri götürülüb.

# Naxçıvan Muxtar Respublikasının 100 illiyi Lənkəranda qeyd edilib

**AMEA-nın Lənkəran Regional Elmi Mərkəzində Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr olunmuş "Müstəqillik dövrü vətəndaşlıq poeziyası üzərindən gəzişmələr: Xanəli Kərimli, Asim Yadigar, Aqil Yaqub və Tofiq Həsənli poeziyası əsasında" mövzusunda elmi seminar keçirilib.**



Lənkəran REM-nin direktoru Mehman Əliyev "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Azərbaycan Prezidentinin 30 dekabr 2023-cü il tarixli Sərəncamını seminar iştirakçılarının diqqətinə çatdırıb və mövzu ilə əlaqədar ətraflı məlumat verərək bildirib ki, Naxçıvan diyarı ən qədim zamanlardan indiyədək digər sahələrdə olduğu kimi, Azərbaycan mədəniyyəti və ədəbiyyatının inkişafı sahəsində də özünəməxsus rol oynamış, mühüm ədəbi-mədəni mərkəzlərindən biri kimi tanınmışdır. Tarixin bütün dövrlərində Naxçıvan Azərbaycanın ictimai-siyasi həyatında öz çəkisi ilə seçilmiş və bütün bunlar bölgənin ədəbi mühitinə də müstəsna təsir göstərmişdir.

Natiq daha sonra Naxçıvan Muxtar Respublikası ilə Cənub bölgəsinin şair və yazıçıları arasında yaradıcılıq əlaqələri barədə danışıb, bu əlaqələrin getdikcə möhkəmləndiyini, yüksələn xətt üzrə inkişaf etdiyini vurğulayıb.

Mərkəzin əməkdaşlarından Cəmil Quliyev, Ülviyyə Axundova, Gözəl Əlizadə, Fəranə Mikayılova və Nəzrin Əlizadə, Lənkəran Dövlət Universitetinin tələbəsi Adilə Qənbərova Naxçıvan ədəbi məktəbinin tanınmış nümayəndələri, şair Xanəli Kərimli və Asim Yadigarın, regionun istedadlı nümayəndələri, şair Aqil Yaqub və Tofiq Həsənlinin tərcümeyi-halı ilə iştirakçıları tanış edib, şeirlərindən nümunələr səsləndiriblər.

Tarix və ədəbiyyat şöbəsinin müdiri Sərraf Talıbovun "Asim Yadigar yaradıcılığının bəzi məqamları - təxmislər" mövzusunda çıxışı dinlənilib.

Naxçıvan şəhərindən şair Xanəli Kərimli Zoom proqramı vasitəsilə tədbirə qoşularaq ürək sözlərini söyləyib, yeni şeirlərini ifa edib, seminarın təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirib, sualları cavablandırıb.

Elmi seminarda iştirak edən şairlərdən Aqil Yaqub və Tofiq Həsənli çıxış edib, Vətən, yurd, torpaq haqqında yeni şeirlərini oxuyub, Lənkəran Dövlət Universitetinin və Lənkəran Tibb Kollecinin tələbələrindən Adilə Qənbərova, Sevinc Əlizadə, Aytən Muradova və mərkəzin əməkdaşı Aqil Həsənovun suallarını cavablandırıblar.

Təqaüddə olan müəllim Allahverən Qənbərli və şair Ağamir Cavad mülahizələrini bölüşüblər.

Tədbiri yekunlaşdıran Mehman Əliyev Lənkəran Dövlət Universiteti və Lənkəran Tibb Kollecinin rəhbərliyinə, tələbə və müəllim heyətinə minnətdarlığını bildirib.

# Xalqımızın böyük ədəbi abidəsi

**AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin "Kitabi Dədə Qorqud" eposu: Heydər Əliyevdən İlham Əliyevə" adlı kitabı çap olunub (Bakı, "Elm",2023, 124 s.).Nəşrin məsul redaktoru filologiya üzrə fəlsəfə doktoru, dosent İsmixan Osmanlıdır.**




Kitabda xalqımızın böyük ədəbi abidəsi olan "Kitabi -Dədə Qorqud" eposunun sovet dövründəki qadağasından danışılıb. Müstəqillik dövründə görkəmli dövlət xadimi Heydər Əliyevin dastanı dünyaya və Azərbaycan xalqına yenidən tanıtmaq təşəbbüslərindən bəhs edilib. Ulu öndərin dastanın tədqiqi və nəşrində yeni tarixi mərhələnin başlanması sahəsində xidmətlərindən söz açılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dastan qəhrəmanları adlarının əbədiləşdirilməsi, kitabın türk aləmində, dünya miqyasında təbliği istiqamətində həyata keçirdiyi çoxcəhətli fəaliyyətindən bəhs olunub.

Kitabın əvvəlində Ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyevin dastan haqqında tarixi fikirləri verilib, epos milli sərvət, ana kitabı, yazılı abidə kimi qiymətləndirilib və "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli sərəncamı verilib.

Akademik İsa Həbibbəyli "Kitabi -Dədə Qorqud" eposu haqqında söz" adlı giriş sözündə Ulu Öndər H.Əliyevin 100 illiyini, Vətən müharibəsindəki Böyük Zəfəri, Xankəndidə keçirilmiş möhtəşəm paradı xatırladıb, kitabı "Heydər Əliyev İli"nə qiymətli elmi hesabat kimi dəyərləndirib. Bildirib ki, "Kitabi -Dədə Qorqud"- eposla yazı faktının vəhdəti kimi qiymətlidir. "Kitabi-Dədə Qorqud" eposu müasir Azərbaycan dövlətinin sələfi Qalın Oğuz Elinin möhtəşəm epopeyasıdır". Bu mənada dastan eyni zamanda ortaq tarixi köklərə malik olan türk dövlətləri inteqrasiyasının genişləndirilməsi, habelə, möhkəmləndirilməsi məramında ideoloji-tarixi əhəmiyyətə malikdir. Ulu Öndər Heydər Əliyev bildirib: "Kitabi-Dədə Qorqud" bizim Ana kitabımızdır. Dədə Qorqud bizim ulu babamızdır, əcdadımızdır. Biz fəxr edirik ki, "Kitabi-Dədə Qorqud" kimi tarixi abidəmiz vardır... "Kitabi-Dədə Qorqud" bütün türk dünyasına məxsusdur. Onun Vətəni Azərbaycandır, sahibi Azərbaycan xalqıdır, müstəqil Azərbaycan dövlətidir". Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl bildirib ki, "Kitabi-Dədə Qorqud" ortaq coğrafiyamızın, böyük millətimizin gerçək hekayəsi, türk dünyasının şəxsiyyət vəsiqəsidir". Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev hesab edib ki, kitab "Qorqud dünyası, Qorqudun dünya qavrayışı Böyük İpək Yolunun ensiklopediyasıdır", Qırğızıstan Respublikasının Prezidenti Əskər Akayev qiymətləndirib ki, "Kitabi-Dədə Qorqud" "ümumtürk mədəniyyəti çələngində ən parlaq incidir", Özbəkistan Ali Məclisinin sədri Erkin Xəlilov dəyərləndirib ki, dastan "yüzilliklər ərzində güclü və tükənməz mənəviyyat, əxlaqi tərbiyə və nəsildən-nəslə qaygı ilə ötürülən özünəməxsus ənənələr mənbəyidir". UNESCO-nun Baş Direktoru Koisiro Matsuura isə göstərib ki, "boylarda təsvir olunmuş insan yaşantıları bütün dünyada bu qəbildən olan mədəni abidələrin dünya mədəniyyətinə verdiyi töhfələrin bir hissəsidir".

Akademik Ön sözündə kitabın yeri və əhəmiyyəti, onun aşkar edilməsi, türk dünyasında ilk nəşri, Türkiyə və Azərbaycanda tədqiqi və təbliği, bolşevizm dövründə qadağası, tədqiqatçılarının tutulması və təqibləri, Sovet dövlətinin rəhbəri İ. Stalinin vəfatından sonra kitabın bəraət alması, görkəmli dövlət xadimi Heydər Əliyev dövründə onun 1977, 1978, 1995, 1999, 2000-ci il nəşrləri, tədqiqi və təbliği işləri, Heydər Əliyev-İlham Əliyev epoxasında qorqudşünaslıq sahəsində görülən tədbirlər, dastanın 1300 illiyi ilə bağlı H.Əliyevin 20 aprel 1997-ci il tarixli Fərmanı, onun rəhbərliyi ilə 9 aprel 2000-ci ildə Türk Dövlətləri Başçılarının Bakıda keçirilmiş VI Zirvə görüşü, İlham Əliyevin rəhbərliyi ilə Qədə Qorqud parkının salınması, "Kitabi-Dədə Qorqud" abidəsinin ucaldılması, dastanın elm aləminə tədqiminin 200 illiyi və digər məsələlərdən söz açıb.

Müəllif nəşrin"Kitabi-Dədə Qorqud"un Heydər Əliyevə qədərki əzablı yolunun xronikası" adlı bölməsində eposun 1923-1939, 1950-1951 və 1957-ci il mərhələlərini göstərib. Qeyd edib ki, dastanla ilk tanışlıq 1923-cü ildə Mirabbas Mirbağırlının "Əski türk ədəbiyyatı nümunələrindən Dədə Qorqud" adlı məqaləsi ilə başlanıb, sonra Əmin Abid, Həmid Araslı, Məmmədhüseyn Təhmasib, Bəkir Çobanzadə və başqaları məqalə yazıb, kitab halında ilk nəşri isə1939-cu ildə akademik Həmid Araslı tərəfindən yerinə yetirilib.

İ.Həbibbəyli kitabın taleyində ikinci mərhələni çətin və mürəkkəb dövr hesab edib. Çünki 1948-1951-ci illərdə onun nəşrinə və tədqiqinə dövlət səviyyəsində qadağa qoyulub. 26 fevral - 6 mart 1926-cı il tarixlərdə akademik V. V. Radlov və İ. Qaspıralının şərəfinə Bakıda I Türkoloji Qurultay çağırılıb. Qurultay türk xalqlarının tarixi, dili, əlifbası, orfoqrafiyası, folkloru, etnoqrafiyası, ədəbiyyatı məsələlərinə həsr edilib.1937-ci ildə elə bu səbəbdən tanınmış türkoloqlara qanlı divan tutulub.

İ.Həbibbəyli kitabın "Kitabi-Dədə Qorqud" eposu Heydər Əliyev epoxasında" adlı bölməsinə geniş yer verib. Dövlət rəhbərinin gördüyü tarixi işlərə xronoloji diqqət yetirib. Ulu öndər 1975-ci ildə eposun motivləri əsasında "Kitabi-Dədə Qorqud" filminin çəkilməsinə nail olub. O, "Dədə Qorqud" adlı ikiseriyalı filmin Azərbaycanda çəkilişinə Kremlin razılığını alıb və maliyyə məsələlərini həll edib. Film respublika və dünya kino ekranlarında göstərilib.

Ümummilli Lider Heydər Əliyev 1988-ci ilin iyulunda Bakıda türkoloqların Birinci Sovet-Türkiyə kollekviumunu təşkil edib. Kollekviumun əsas müzakirə mövzusu "Kitabi-Dədə Qorqud" dastanları olub. Tədbirdə Türkiyə və Sovetlər Birliyinin Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Moskva alimləri, qorqudşünaslar iştirak edib. Türkiyə Respublikası Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumu tərəfindən təmsil olunub. Qardaş ölkədən Orxan Şaik Gökyay, Tüncər Gülənsoy, Osman Fikri Sərtqaya, Bahəddin Ögəl, Saim Sakaoğlu, Əhməd Bican Ərcilasun, Fikrət Türkmən, Azərbaycandan Anar, Kamal Abdulla, Xalıq Koroğlu, Şamil Cəmşidov, Süleyman Əliyarov, Tofiq Hacıyev, Tofiq Məlikov və Kamil Vəli Nərimanoğlu, Qazaxıstandan Şakir İbrayev, Ərdəm Kasıbekov, Qırğızıstandan Süleyman Kayıpov, Türmənistandan Annaqurban Aşırov iştirak ediblər.

İ.Həbibbəyli hesab edib ki, eposun həyatında ən böyük hadisələr müstəqillik dövrünə aiddir. H.Əliyev 20 aprel 1997-ci ildə dastanın 1300 illik yubileyinin keçirilməsi barəsində Fərman imzalayıb. Tarixi sənədə əsasən geniş miqyaslı tədbirlər həyata keçirilib. İlk tədbir 22-24 dekabr 1998-ci ildə olub. Bakı şəhərində II Beynəlxalq "Dədə Qorqud" kollekviumu keçirilib. İclas I Beynəlxalq "Dədə Qorqud" kollekviumunun 10 illiyinə həsr edilib.Tanınmış türkoloqlardan Zeynəb Qorxmaz, Aysu Ata, Mətin Ərgün, Əli Düymaz, Həmzə Zülfüqar da iştirak edib. Məclis Anarın sədrliyi ilə keçirilib. Giriş sözünü akademik Bəkir Nəbiyev söyləyib.Yekunda bu olub ki, kollekvium Azərbaycanı qorqudşünaslığın əsas elmi mərkəzlərindən biri kimi tanıdıb.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1999-cu ildə dastanın 1300 illiyi UNESCO səviyyəsində qeyd edilib. Baş qərargahda beynəlxalq simpozium keçirilib. Azərbaycandan Elçin Əfəndiyev, Anar Rzayev, Kamal Talıbzadə, Fərhad Xəlilov, İsa Həbibbəyli, Şamil Cəmşidov, Türkiyədən Əhməd Bican Ərcilasun, Fransa Şərq dilləri və Mədəniyyətləri İnstitutunun professoru Lui Bazen və Fransa Elmi-Tədqiqatlar Mərkəzinin direktoru, professor Altan Gökalp çıxış edəyib. Lui Bazen və Altan Gökalp Azərbaycan Oğuznaməsini türk dilindən fransız dilinə çevirərək 1998-ci ildə Parisdə nəşr etdirib.

Anarın rəhbərliyi ilə 2000-ci ildə 2 cildlik "Kitabi-Dədə Qorqud" Ensiklopediyası" nəşr edilib. Bu nəşr Azərbaycan, Türkiyə, Avropa, Rusiya, Orta Asiya alimlərinin iştirakı ilə hazırlanıb. Nəşrin I cildinə Ulu öndər Heydər Əliyev "Milli varlığımızın mötəbər qaynağı" adlı Ön söz yazıb. İ. Həbibəyli bu məqaləni nadir fakt kimi "proqram xarakterli elmi-siyasi əsər" adlandırıb.

Yubiley öncəsi və sonrası çoxlu monoqrafiya, lüğət, biblioqrafik göstəricilər, məqalələr yazılıb. Yerli və beynəlxalq konfranslar, simpoziumlar keçirilib. Konfrans materialları çap olunub. İ.Həbibəyli təklif verib ki, nəşr kitablarından ibarət kitabxananın yaradılması da mümkündür.

Fərmandan irəli gələn çoxlu kitablar nəşr edilib.

Ulu öndər Heydər Əliyev 1 aprel 2000-ci ildə "Dədə Qorqud heykəli və Dədə Qorqud dünyası" Tarixi-Etnoqrafik Kompleksinin yaradılması haqqında xüsusi Fərman imzalamışdı. Bakı şəhərinin Nərimanov rayonunda Uşaq Dəmir Yolu Bağı ərazisində Dədə Qorqud abidəsi və Qorqud Ata Dünyası ilə əlaqədar digər atributları özündə birləşdirən Dədə Qorqud parkının salınması nəzərdə tutulmuşdu.13 dekabr 2013-cü ildə həmin Tarixi-Etnoqrafik Kompleks ucaldılıb, Dədə Qorqud parkı xalqımızın istifadəsinə verilib.

Dövlət başçısı İlham Əliyev Belçikanın paytaxtı Brüssel şəhərində Qorqud Atanın heykəlinin ucaldılmasını həyata keçirib.18 may 2004-cü ildə onun iştirakı ilə Ümumdünya Gömrük Təşkilatının Brüsseldəki baş iqamətgahının qarşısında "Dədə Qorqud" abidə kompleksinin açılış mərasimi olub. İ.Həbibbəyli yazıb: "Dünyada Dədə Qorquda ucaldılan ilk abidə olan bu heykəl Avropada oğuz başbiləninin şərəfinə yaradılmış birinci yazılı heykəlabidə olaraq da orijinal sənət əsəri kimi yüksək qiymətə malikdir... Əslində Avropanın paytaxtında Dədə Qorqud heykəlinin ucaldılması Prezident İlham Əliyevin dünyaya inteqrasiya proqramının bəyannaməsi kimi səslənir".

15 aprel 2015-ci ildə UNESCO-nun mənzilqərargahında Azərbaycan, Türkiyə, Qazaxıstan, Türkmənistan və beynəlxalq qurumun yanındakı daimi nümayəndəliklərin təşkilatçılığı, habelə, beynəlxalq Türk Akademiyasının dəstəyi ilə "Kitabi-Dədə Qorqud" eposunun alman dilinə tərcüməsi və nəşrinin 200 illiyinə həsr olunmuş geniş miqyaslı yığıncaq keçirilib. 22 dekabr 2015-də Azərbaycan Dövlət Akademik Milli Teatrında elmi-bədii yubiley tədbiri olub. Tədbirdə Türkiyə, Almaniya, Rusiya, İran, Gürcüstan, İtaliya və sair ölkələrin alimləri, qorqudşünasları və geniş ictimaiyyət iştirak edib.

2022-ci ildə Pakistan Ədəbiyyat Akademiyasında professor Yusuf Kuşkun rəhbərliyi ilə Najam ud din Əhmədin tərcüməsində "Kitabi-Dədə Qorqud" urdu dilində çapdan çıxıb. Abidə 2018-ci ildə "Dədə Qorqud / Korkut Ata / Dede Korkut irsi: dastan mədəniyyəti, xalq nağılları və musiqisi" adı ilə YUNESKO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin XIII sessiyasında qəbul edilmiş qərarla Azərbaycan, Qazaxıstan və Türkiyə ilə birgə çoxmillətli nominasiya kimi Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ siyahısına daxil edilib.

Prezident İlham Əliyev ölkəmizin ərazi bütövlüyü və müstəqilliyinin rəmzi kimi "Kitabi-Dədə Qorqud" dastanlarına xüsusi münasibət bildirərək deyib: "Əsrdəki Oğuz Eli kimi coğrafi məfhum bütün Azərbaycan ərazilərini əhatə edir... Azərbaycanın tarixi coğrafiyasının bütün genişliyi ilə əhatə edən monumental epos xalqımıza məxsus qədim adət-ənənələrin, ulu babalarımızın mənəvi aləminin və yüksək bədii zövqünün öyrənilməsində qiymətli mənbədir".

Akademik İsa Həbibbəyli əldə etdiyi mühüm tezis və elmi müddəalarını kitabın Nəticə hissəsində ümumiləşdirib. Müəllif nəşrin fotosalnamə hissəsində Qədə Qorqud təntənələrini əks etdirən şəkilləri də paylaşıb. O, kitabına "Heydər Əliyev İli" və "Qorqud Ata" adlı şeirlərini və ədəbiyyat siyahısını daxil edib.

Yeri gəlmişkən, AMEA Ədəbiyyat İnstitutu "Kitabi-Dədə Qorqud" müstəqillik epoxasında" adlı kitabı da çap etdirib. Topluda Ümummilli lider H.Əliyev və Prezident İlham Əliyevin bu sahədə imzaladığı fərman və sərəncamlar, nitqlər və çıxışların mətnləri verilib. Nəşrin təşəbbüskarı, rəhbəri və ön söz müəllifi akademik İsa Həbibbəyli, toplayıb tərtib edəni və nəşrə hazırlayanı f.ü.f.d.İsmixan Osmanlı, məsul redaktoru isə f.ü.f.d.Töhfə Talıbovadır.

Kitab Ümummilli lider H.Əliyevin "Milli varlığımızın mötəbər qaynağı", habelə, İ.Həbibbəylinin "Kitabi-Dədə Qorqud" salnaməsi" adlı ön söz və dörd bölmədən ibarətdir. I hissədə "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi ilə əlaqədar Ulu Öndər Heydər Əliyevin imzaladığı fərman və sərəncamlar, II hissədə "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi ilə əlaqədar Ulu Öndər nitqləri və çıxışları, III hissədə "Kitabi-Dədə Qorqud" dastanı haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı fərman və sərəncamlar, IV hissədə isə "Kitabi-Dədə Qorqud" dastanı ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri və çıxışlarının mətni verilib.

Beləliklə, akademik İsa Həbibbəylinin "Kitabi-Dədə Qorqud" eposu: Heydər Əliyevdən İlham Əliyevə" adlı kitabı dastanı dünya miqyasında tanıtmaq, onu tədqiq və təbliğ etmək sahəsində həyata keçirilən çoxcəhətli fəaliyyətin mənəvi yaddaş nümunələrindən biri kimi əhəmiyyətlidir.

**Əlizadə ƏSGƏRLİ**
**filologiya elmləri doktoru**

# İmmanuel Kantın 300 illiyinə həsr olunmuş seminar

**AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunda görkəmli alman filosofu neoklassik alman fəlsəfəsinin banisi, müasir Avropa fəlsəfə tarixinin ən nüfuzlu nümayəndələrindən biri olan və epistemoloji, təbiət elmləri, əxlaq, politika, estetika, sənət və bu kimi bir çox sahəni dərindən öyrənən, İmmanuel Kantın anadan olmasının 300 illik yubileyinə həsr olunan ümuminstitut seminarı keçirilib.**



Seminarda Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru f.e.d., professor İlham Məmmədzadə məruzə ilə çıxış edərək bildirib ki, hər bir xalqın öz fəlsəfəsi var və fəlsəfə tarixindən danışarkən alman fəlsəfəsinin dünya fəlsəfə tarixində əsas yerlərdən birini tutduğunu görürük. Kant bir neçə fənləri öyrənən alim olmaqla yanaşı dünyaca tanınan filosof olmuş və onun tədqiqatlarında epistemoloji yanaşmalar əsas yer tutur: "Bu məsələyə bir neçə tezislə yanaşmaq olar: metodoloji fizika, əxlaq fəlsəfəsi, azad iradə, əxlaq və din. Bəs Kantın mariflənmə ideyası nədir? - sualına əgər cavab versək görərik ki, maariflənmə insanlığın özü-özünə təlqin etdiyi qeyri-yetkinlikdən xilas olması deməkdir".

Maarifçiliyin əsas şüarı öyrənməyə cəhd etmək və öz dərrakəsini istifadə etmək cəsarətinə sahib olmaqdır. Kantın əsərlərinin başlanğıc nöqtəsi həmişə elm olmuşdur və insanın bunu təcrübə ilə əldə edə biləcəyini və metofizikada keçərli olduğunu müdafiə edən İlham Məmmədzadə daha sonra qeyd edib ki, müasir elmi biliklər Kant fəlsəfəsi ilə müxtəlif istiqamətlərlə üstüst düşdüyünü görürük.

Seminarda f.e.d. professor Adil Əsədov "Kant və postmodernizm", f.ü.f.d Məhəmməd Cəbrayılov "Kantın təbiət fəslsəfəsinə müasir nəzəri kontekstdə baxış" adlı məruzəsində Kantın "Kainatın mənşəyi və hərəkəti" əsərinə onun ideyalarının müasir dövr kvant fizikasına, təbiət elmlərinə təsirindən danışdı. Daha sonra M.Cəbrayılov Kantın "fenomenlər" və "novmenlər" anlayışlarının fəlsəfi dərkinin əsasən onun tezis və antitezislərindəki ideyaların düzgün anlaşılması ilə əlaqələndirdi.Sonda f.ü.f.d. Zaur Rəşidov "İ.Kantn fəlsəfi antropologiyası və neokantçılıqda insan sualı: müqayisəli təhlil" mövzusunda məruzə ediblər. Məruzələrdən sonra f.e.d., professor Əli Abasov, f.e.d., professor Əbülhəsən Abbasov, f.ü.f.d. Xanım Mustafayeva və digər iştirakçılar mövzu ilə bağlı çıxış edərək, fikirlərini bölüşüblər.

# "Türk folklorşünaslığı tarixində İqnats Kunoş adı" kitabı nəşr olunub

**AMEA-nın Folklor İnstitutunun Türk xalqları folkloru şöbəsinin böyük elmi işçisi filologiya üzrə fəlsəfə doktoru Qumru Şəhriyarın "Türk folklorşünaslığı tarixində İqnats Kunoş adı" kitabı çapdan çıxıb.**




Kitabda bütün ömrünü türk folklorunun toplanmasına, unudulmuş şivə və dialektlərinin öyrənilməsinə həsr etmiş macar türkoloqu İqnats Kunoşun həyat və yaradıcılığı, eləcə də alimin tədqiqat əsərləri və topladığı folklor örnəkləri yer alıb. Qeyd edək ki, istər müharibələr ucbatından, istərsə də təbii fəlakətlərdən dolayı xəritədən silinmiş bəzi bölgələrin adət-ənənələri, toponimləri, xalq yaradıcılığı nümunələri məhz İ.Kunoşun əvəzsiz xidmətləri sayəsində bu günə qədər gəlib çatmışdır.

220 səhifəlik kitabın elmi redaktoru filologiya elmləri doktoru, professor Əfzələddin Əsgərdir.

# *Sabah Kərküklü:* "İraqla Azərbaycan arasında ədəbi-mədəni əlaqələr gücləndirilməlidir"

**İraq Mədəniyyət Nazirliyinin nəzdindəki Türkmən Mədəniyyət Mərkəzinin rəhbəri, "Türkmən eli" jurnalının baş redaktoru doktor Sabah Abdullah Kərküklü AMEA-nın təşkilatçılığı ilə keçirilən, böyük mütəfəkkir Məhəmməd Füzulinin 530 illiyinə həsr olunmuş "Dahi Azərbaycan şairi Məhəmməd Füzuli müştərək müsəlman mədəniyyətinin yetirməsi kimi" mövzusunda beynəlxalq elmi konfransda iştirak etmək üçün Bakıda səfərdə olub. Sabah Kərküklü Azərbaycan ilə İraq arasında mövcud olan elmi, ədəbi-mədəni əlaqələr və müvafiq sahədə əməkdaşlıq perspektivlərinə dair suallarımızı cavablandırıb.**



**- Dr. Sabah Kərküklü, Azərbaycana xoş gəlmişsiniz. Sizi həm ölkəmizdə, həm də AMEA-da görməkdən çox şadıq. Əvvəlcə istərdik ki, dahi şairimiz Məhəmməd Füzulinin 530 illiyinə həsr olunmuş beynəlxalq elmi konfransla bağlı təəssüratlarınızı bölüşəsiniz.**

- Təşəkkür edirəm, sağ olun. Şübhəsiz ki, Füzuli yalnız Azərbaycanın deyil, həm də bütün türk dünyasının görkəmli nümayəndəsidir. Belə bir dahi mütəfəkkirin 530 illiyinə həsr olunmuş tədbirdə çıxış etməyim mənim üçün olduqca qürurvericidir.

Mən həmin konfransda "Füzuli əl-Bağdadi və tarixçilərin mübahisəsi" mövzusunda məruzəmi təqdim etdim. Məruzədə Məhəmməd Füzulinin həyat və fəaliyyəti, doğum və ölüm tarixi ilə bağlı şübhəli məqamlara dair fikirlərimi bölüşdüm. Həm də dahi şairin milli mənsubiyyəti, məzhəbi, əqidəsi barədə tarixçilərin mübahisəsindən bəhs etdim, onların müxtəlif fikirlərinə münasibət bildirdim.

Ümumiyyətlə, bu barədə mülahizələr müxtəlifdir və bir neçə qrupa bölünür. Birinci qrup Fizulinin Bağdadda doğulduğunu deyir. Düzdür, Füzuli həmin şəhərdə yaşayıb, hətta iki dövlət arasında baş verən savaşa şahid olub və bu, onun şeirlərində də öz əksini tapır. Bir çox təzkirələrdə o, Bağdadi təxəllüsü ilə anılır. Lakin şairin Bağdadda deyil, onun yaxınlığındakı məşhur Kərbəla şəhərində 1494-cü ildə doğulması faktı daha dəqiqdir.

İkinci qrup tarixçilər isə şairin Bağdaddan 120 km cənubda yerləşən Hillədə yaşadığını deyir. Bu, çox zəif ehtimaldır. Çünki, o zamanlar Hillə sadəcə kiçik bir qəsəbə idi.

Onu da bildirim ki, İraqda və Kərkükdə uşaqlar məktəbə getməmişdən əvvəl Füzulinin şeirlərini, qəzəllərini əzbərləyirlər. Məktəblilər böyük şairin yaradıcılığına yaxşı bələddirlər.

Qeyd edim ki, Azərbaycana səfərim çərçivəsində, həmçinin AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda keçirilən "Məhəmməd Füzuli və Türk dünyası" adlı beynəlxalq elmi konfransda məruzə etmişəm.

Bundan başqa, Folklor İnstitutunun təşkilatçılığı ilə "Məhəmməd Füzuli və Şərq folkloru" mövzusunda respublika elmi konfransında "Füzuli və İraq-türkman folkloru" adlı məruzə ilə çıxış etmişəm. Həmçinin Fəlsəfə və Sosiologiya İnstitutunda təşkil olunan "İraq türkmanlarının ictimai, siyasi və fəlsəfi görüşləri" mövzusunda dəyirmi masada iştirak edərək fikirlərimi bölüşmüşəm.

**- Türkmən Mədəniyyət Mərkəzinin əsas fəaliyyət istiqamətləri hansılardır? Bu Mərkəz Türk dünyasına hansı töhfələri verib?**

- İraq Mədəniyyət Nazirliyinin nəzdindəki Türkmən Mədəniyyət Mərkəzinin əsası 1970-ci ildə qoyulub. Biz Türk dünyasının bir parçası kimi türk dövlətləri ilə bağlı dünyada keçirilən bir çox tədbirlərə qatılırıq. Türkmən Mədəniyyət Mərkəzinin jurnalında mütəmadi olaraq türk dünyasının tarixi, mədəniyyəti, onun böyük şəxsiyyətləri ilə bağlı məqalələr yer alır, kitablar hazırlanır, çoxaspektli tədqiqatlar aparılır.

Xatırladım ki, 2-3 ay öncə rəhbərlik etdiyim Türkmən Mədəniyyət Mərkəzinin "Türkman kültürü" jurnalının görkəmli Azərbaycan şairi Məhəmməd Füzuliyə həsr olunan xüsusi sayı işıq üzü görüb. Jurnalın bu sayında Ədəbiyyat İnstitutunun alimlərindən prof. İmamverdi Həmidov, fil.e.d., dos. Ataəmi Mirzəyev və Ədəbiyyat İnstitutunun mərhum əməkdaşı fil.e.d., dos. Mahirə Quliyevanın Məhəmməd Füzuliyə həsr edilmiş elmi məqalələri ərəb dilində dərc olunub.

"Türkman kültürü" jurnalı 200 səhifədən ibarət olmaqla ildə 4 dəfə nəşr olunur. Həmin dərginin yarısı ərəbcə, yarısı isə türk dilindədir.

Türkmən Mədəniyyət Mərkəzinin əsas fəaliyyəti türkmən dilini qorumaq, bu sahədə tədqiqatlar aparmaq və əldə olunan nəticələri dünya ictimaiyyətinə çatdırmaqdır. Mərkəz ildə təxminən 10-15 kitab çap edir, eyni zamanda 4-5 konfrans keçirir.

**- Azərbaycanla İraq arasındakı elmi, ədəbi-mədəni əlaqələrin inkişafı istiqamətində hansı tədbirlərin, layihələrin həyata keçirilməsi nəzərdə tutulur?**

- İraq və Azərbaycan arasında tarixi əlaqələr olmasına baxmayaraq, son zamanlar bu istiqamətdə geniş tədbirlərin görülməsinə, elmi-ədəbi əlaqələrin daha da inkişaf etdirilməsinə ehtiyac vardır. Əsas məsələ iki ölkə arasında hələ də viza probleminin olmasıdır. Ümid edirəm ki, tez bir zamanda bu problem aradan qaldırılar. İraqla Azərbaycan arasında həyata keçirilməsi nəzərə tutulan bir çox layihələr var. Azərbaycanda İraq ədəbiyyatının, İraqda isə Azərbaycan ədəbiyyatının təbliği məqsədilə tərcümə əsərlərinin, ayrı-ayrı ədəbi şəxsiyyətlərin həyat və yaradıcılığını əhatə edən monoqrafiyaların, eləcə də qarşılıqlı olaraq elmi məqalələrin nəşri nəzərdə tutulur. Bütün bu layihələrin reallaşması üçün müəyyən zaman və davamlı əməkdaşlığa ehtiyac vardır.

Həmçinin AMEA-nın Şərqşünaslıq İnstitutu ilə Türkmən Mədəniyyət Mərkəzi arasında əlaqələr mövcuddur. Biz Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyeva ilə bir neçə dəfə görüşüb, müəyyən məsələlər ətrafında müzakirələr aparmışıq.

**- "Türkmən eli" populyar elmi jurnalının əsas hədəfləri barədə də məlumat verməyinizi istərdik.**

- "Türkmən eli" jurnalı Türkmən cəbhəsinə aid, ayda bir dəfə dərc olunan jurnaldır. İraq türkmanları İraqın müxtəlif regionlarında mövcud olsalar da, onların ən sıx yaşadıqları yer Kərkük bölgəsidir. Coğrafi cəhətdən həm də "Türkmən eli" adlandırılan Kərkük bölgəsi və ətrafı İraq türkmanlarının ana vətəni hesab olunur. Azərbaycanda və türk dünyasında İraq türkmanlarına xüsusi ehtiram və böyük rəğbət vardır. Hər şeydən əvvəl, ona görə ki, İraq türkmanları türk dünyasının ayrılmaz bir parçasıdır.

Qeyd edim ki, yaxın gələcəkdə Kərkük ədəbiyyatşünaslıq elminin görkəmli nümayəndəsi Əta Tərzibaşının anadan olmasının 100 illiyinə həsr olunan tədbir keçirməyi düşünürük. Tədbirə Azərbaycandan olan alim və mütəxəssisləri də dəvət edəcəyik. İnanırıq ki, bu tədbir iki ölkə arasında ədəbi əlaqələrin daha da inkişaf etməsinə səbəb olacaq, mühüm nəticələrlə yadda qalacaq.

# *Vüqar Haqverdiyev:* "Cizgi filmləri uşaqların məntiqi təfəkkürünə müsbət təsir edir"

**Müsahibimiz AMEA-nın "Elm" Nəşriyyatının direktor müavini Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü Vüqar Haqverdiyev cəmiyyətdə uşaq yazıçısı və dramaturq kimi də tanınır. Yazıçı "Saçları səməni oğlan", "Sehrli planşet", "Qarınqulu ayı balası", "Qıvrımsaçın hoqqaları", "Zaman maşınında səyahət: Qırmızı adamlar planeti" kimi bir-birindən maraqlı və rəngarəng nağıl kitablarının, uşaq pyeslərinin, eləcə də bədii və cizgi film ssenarilərinin müəllifidir. O, dəfələrlə nüfuzlu ədəbiyyat və ssenari, həmçinin jurnalist yazı müsabiqələrində yüksək yerlərə layiq görülüb.**



**- Vüqar müəllim, AMEA-dakı fəaliyyətinizlə yanaşı, bədii yaradıcılıqla da məşğul olursunuz. Bilmək istərdik ki, niyə məhz uşaqlar üçün yazmağa daha çox üstünlük verirsiniz?**

– Mən 20 il AMEA Rəyasət Heyətinin aparatında çalışmışam. Həmin dövrdə, əsasən elm sahəsi ilə bağlı strateji əhəmiyyətli sənədlərin, işgüzar məktub layihələrinin hazırlanmasında yaxından iştirak etmişəm və bu işdə böyük təcrübə qazanmışam. Bu sənədlərin hazırlanması icraçıdan çox böyük məsuliyyət, konkretlik, məntiq və diqqət tələb edir. Müqayisə etsək görərik ki, uşaq əsərləri də dəqiqlik, məntiqlilik, yığcamlıq, aydınlıq və müəllifindən böyük məsuliyyət tələb edir.

Nəzərə almaq lazımdır ki, kiçik yaşlı uşaqlar ilk də ədəbiyyatla tanış olanda, onlar həm də ana dilimizin gözəlliklərini hiss etməli, dilimizi ürəkdən sevməlidirlər. Bu, onların nitqinin inkişafında, yaşıdları ilə, böyüklərlə ünsiyyət qurmaq bacarıqlarının formalaşmasında mühüm rol oynayır.

**– Həm də uşaqlara məntiqli düşünməyi öyrədir..**

– Bəli, ona görə də balacalar üçün yazılan əsərlərdə bütün xırdalıqları ölçüb-biçməlisən, yanlış anlaşıla biləcək fikirlərə yol verməməlisən. Qəhrəmanın əvvəldən axıra kimi getdiyi yol məntiqli olmalıdır. Kiçik yaşlı uşağa nağıl oxuyanda, o, əsərin qəhrəmanının yerinə həyəcan keçirir, "sonra nə oldu?" kimi suallar verir. Nağılı bəyəndikdə isə valideynindən onu bir daha oxumasını istəyir. Təbii olaraq, qəhrəmanın atdığı addımlar onun şüuraltısına düz və məntiqi hərəkətlər kimi həkk olunur. Qəhrəman nə qədər ağıllı, ədalətli, qorxmaz, humanist, xeyirxah olsa və bunun hesabına hadisələrdən qalib kimi ayrılsa, o, uşaqda da bu insani keyfiyyətləri oyadır və uşaq həyatda belə olmağa çalışır.

**– Son illər Azərbaycanda uşaqlar üçün yazılmış əsərlərin, nağılların səviyyəsi sizi qane edirmi?**

– AMEA-nın Ədəbiyyat İnstitutunun, eləcə də Azərbaycan Yazıçılar Birliyinin Uşaq ədəbiyyatı şöbələri mütəmadi olaraq ölkədə uşaq ədəbiyyatının vəziyyəti ilə bağlı analitik təhlillər aparır və hesabatlar verirlər. Hesabatlardan görmək olar ki, hər il xeyli sayda yeni uşaq kitabları nəşr olunur. İnanıram ki, onların əksəriyyəti maraqlı əsərlərdir. Çünki, həm müəllifləri, həm də nəşriyyatçıları tanınırlar. Adətən nəşriyyatlar tanış olub bəyənmədikləri uşaq əsərlərini öz hesablarına nəşr etmirlər. Uşaq kitabları digər nəşrlərlə müqayisədə baha başa gəlir. Onlar həm gözəl dizayna malik olmalı, həm də cəlbedici illüstrasiyalarla zəngin olmalıdır. Əks halda əsər nə qədər maraqlı olsa da, uşağın diqqətini cəlb etməyəcək. Bu isə, əlavə xərclər tələb edir. Xoşbəxtlikdən, mənim az da olsa rəssamlıq və dizaynerlik qabiliyyətim olduğu üçün bəzi kitablarımın rəssamı şəxsən özüm olmuşam.

**– Bildiyimiz kimi, sonuncu dəfə AMEA haqqında ən müfəssəl qrafik dizaynlı məlumat kitabını da siz hazırlamısınız..**

– 2018-ci ildə rəhbərliyin tapşırığı ilə AMEA haqqında əhatəli və maarifləndirici buklet hazırladım. Həmin buklet elmi ictimaiyyət tərəfindən böyük maraqla qarşılandı və AMEA-nın fəaliyyətinin geniş işıqlandırılması, elmin populyarlaşdırılması işinə dəyərli töhfə kimi qiymətləndirildi. Bukletlər də uşaq kitabları kimi həm cəlbedici dizaynda tərtib olunmalı, həm də mətnlər mövzuya uyğun şəkillərlə müşayiət edilməlidir. Onu da qeyd edim ki, bu yaxınlarda AMEA-nın yeni loqotipi müsabiqəsində də iştirak etmişəm.

**– Yazıçı üçün rəssamlıq təcrübəsinin olması, sözsüz ki, müsbət haldır. Bu, müəllifə öz yaradıcılığını həm qələmlə, həm də fırça ilə göstərməyə imkan verir. Söhbətimizin əvvəlində bəlli oldu ki, uşaq ədəbiyyatı sahəsində problemlərdən biri də nəşrlə bağlıdır. Bəs başqa hansı problemlər var?**

– Onu deyə bilərəm ki, uşaq kitabları sahəsində təbliğat, təhlil və tənqid zəifdir. Nəşriyyatlar, əsasən özləri istehsal etdikləri və yaydıqları uşaq kitablarının reklamı ilə məşğul olur, təqdimatını keçirirlər. Digər müəlliflərin isə buna imkanı olmur.

Əvvəllər müasir nağıl müsabiqələri keçirilirdi, qalib əsərlərin müəllifləri mükafatlandırılırdı, həmin əsərlər kitab və jurnal halında nəşr edilib uşaqlara təqdim olunurdu. Məsələn, mənim yazdığım "Həyəti kim təmizləyirmiş?" adlı hekayə 2011-ci ildə "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti tərəfindən keçirilən nağıl müsabiqəsində ikinci yerə layiq görülüb və "Təmiz şəhər nağılları" jurnalına daxil edilib. Həmin jurnal çoxsaylı tirajla çap olunaraq müəlliflərin iştirakı ilə Bakı şəhəri ərazisində yerləşən bütün orta məktəblərə pulsuz paylanılıb.

İstərdim ki, ölkədə Uşaq Ədəbiyyatına Dəstək Fondu yaradılsın, müəyyən mövzulara dövlət sifarişi olsun, məktəblərdə uşaq kitablarının, jurnalların satışı bərpa edilsin, müəlliflərlə görüşlər təşkil edilsin.

**– Vüqar müəllim, tez-tez uşaqlarla görüşə gedirsiniz, balacalarla ünsiyyət qurmaq çətin olmur ki?**

– Uşaqlarla görüşün məsuliyyəti də böyük olur. Gərək görüşə hazırlıqlı gedəsən, uşaqlarda xoş təəssürat yaratmağı bacarasan. Belə olan halda çox səmimi və mehriban söhbət alınır. Mən həmişə çalışıram ki, uşaqlarla görüşəndə, imkan daxilində onlara öz kitablarımdan da hədiyyə edim. Bu, onların xoşuna gəlir. Hətta mən uşaqları nağıl yazmağa, illüstrasiyalar çəkməyə də həvəsləndirirəm. Bu məqsədlə maraqlı layihələr də həyata keçirmişəm. Məsələn, 2018-ci ildə internet üzərindən respublika üzrə 6-10 yaş arası uşaqlar üçün nağıl müsabiqəsi təşkil etdim. Müsabiqə uşaqlarda çox böyük maraq və həvəs oyatdığı üçün qaliblərdən əlavə digər iştirakçıları da nağıl kitabları ilə mükafatlandırdım.

Bundan başqa, mənim bir neçə kitabımın rəssamı elə uşaqlar olub. Gənc rəssam Gilan Əzizin rəhbərliyi ilə Azərbaycan Dövlət Uşaq Filarmoniyasının "Bacarıqlı əllər" rəsm dərnəyinin 10-a yaxın üzvü "Qızıl balıq" adlı nağılıma gözəl illüstrasiyalar çəkiblər. "Qarınqulu ayı balası" kitabımdakı rəsmləri AMEA-da çalışan həmkarlarımdan birinin övladı, istedadlı rəssam Adilə Qurbanova hələ məktəbdə oxuyarkən çəkib.

**– Siz həm də öz əsərləriniz əsasında bədii və cizgi film ssenariləri, eləcə də uşaq pyesləri hazırlayırsınız. Pyesləriniz nəinki Azərbaycanda, həm də xarici ölkələrdə səhnələşdirilir. Bayaq adını çəkdiyiniz "Qarınqulu ayı balası" nağılı əsasında yazdığınız pyesinizin Rusiyanın Ulyanovsk vilayətinin "Karabaz-Barabaz" Böyük Kuklalar Teatrında səhnələşdirilməsi hər birimiz üçün qürurvericidir.**

– "Qarınqulu ayı balası" pyesi ilk dəfə 2022-ci ildə Bakı Uşaq və Gənclər Teatrında səhnələşdirildi və böyük anşlaqla premyerası keçirildi. Bu, məni çox həvəsləndirdi. Sonra həmin pyes qardaş ölkə olan Gürcüstanın "BEEZ" Uşaq Teatrında səhnəyə qoyuldu.

Əsərin süjet xətti, bədii keyfiyyəti, dinamikliyi və tərbiyəvi əhəmiyyəti rejissorların diqqətini cəlb edib. Bu səbəbdən də mən onu müxtəlif dillərə tərcümə edib xarici ölkə teatrlarına da təqdim etmək qərarına gəldim. Xoşbəxtlikdən, bu, kifayət qədər uğurlu alındı. Rusiyanın Ulyanovsk vilayətinin "Karabaz-Barabaz" Böyük Kuklalar Teatrının yaradıcısı və rəhbəri, tanınmış rejissor-ssenarist Valeri Qriqoryev əsəri çox bəyəndi və uşaqların zövqünə uyğun rəngarəng, olduqca maraqlı bir səhnə əsəri ərsəyə gətirdi. İstərdim ki, onu telekanallarımızdan biri dublyaj edib balaca izləyicilərimizə təqdim etsin.

Bundan başqa, ötən il "Sehrli planşet" adlı pyesim Rusiyanın Krasnoyarsk vilayətinin Kozul "Solneçnıe luçiki" Uşaq Musiqili Teatrında gənc rejissor Yekaterina Kukina tərəfindən səhnələşdirildi və həmin tamaşa "Dünya xalqlarının nağılları" teatr festivalında uğurla nümayiş etdirildi. Qeyd edim ki, yazdığım eyniadlı cizgi filmi ssenarisi də 2019-cu ildə Mədəniyyət Nazirliyi tərəfindən keçirilmiş bədii və animasiya filmi ssenariləri müsabiqəsində qaliblər sırasında yer alıb və onun əsasında animasiya filminin çəkilməsi nəzərdə tutulub.

***Müsahibələri apardı: Nərgiz QƏHRƏMANOVA***
***AMEA Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin Elektron informasiya sektorunun müdiri***

# *Abdulla Şaiq:* "Mən yazıçılığımdan daha çox müəllimliyimlə fəxr edirəm"



**Hər il aprelin 23-ü "Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü" kimi qeyd olunur. Həmin gün Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Abdulla Şaiqin Mənzil-Muzeyi bütün kitabsevərlərə və oxuculara gözəl hədiyyə ərməğan ediblər. Bu iki qurumun birgə təşkilatçılığı ilə ana dilimizdə yazılan ilk dərsliklərdən biri olan "Türk çələngi"nin yeni nəşrinin təqdimat mərasimi keçirilib. Dərslik görkəmli Azərbaycan şairi, yazıçısı, dramaturqu, tanınmış tərcüməçi, maarifçi və pedaqoq Abdulla Şaiq tərəfindən tərtib edilib.**

"Türk çələngi" dərsliyinin transfoneliterasiyasını Ədəbiyyat İnstitutunun Yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsinin aparıcı elmi işçisi filologiya üzrə fəlsəfə doktoru, dosent Arzu Əhməd Hacıyeva həyata keçirib. Nəşrin redaktoru həmin şöbənin müdiri filologiya elmləri doktoru, professor İslam Qəriblidir.

Tədbirdə Ədəbiyyat İnstitutu, Abdulla Şaiqin Mənzil-Muzeyi, Hüseyn Cavidin və Cəfər Cabbarlının ev muzeyləri, Məmməd Səid Ordubadinin Xatirə Muzeyi, Firidun bəy Köçərli adına və Abdulla Şaiq adına uşaq kitabxanaları, həmçinin media nümayəndələri iştirak ediblər.

Təqdimat mərasimini giriş sözü ilə açan Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini filologiya üzrə fəlsəfə doktoru, dosent Mehman Həsənli qonaqları salamlayaraq "Türk çələngi" dərsliyinin yenidən nəşrini əlamətdar hadisə adlandırıb. Qeyd edib ki, 1919-cu ildə, yəni Şərqin ilk demokratik respublikasının dövründə tərtib edilən dərslik öz aktuallığını bu gün də qoruyub saxlayır. Mehman Həsənli nəşrin müasir müstəqilliyimizin ideyalarının dərki üçün də mühüm mənbə, uşaqların azərbaycançılıq və türkçülük ideyaları işığında tərbiyəsi üzrə özünəməxsus ideoloji konsept olduğunu vurğulayıb.

Direktor müavini bildirib ki, Azərbaycan ədəbiyyatı, pedaqoji və ictimai fikrinin inkişafında böyük rol oynamış Abdulla Şaiq dərsliyə türk yazarlarının hekayə və şeirlərini daxil edib, dərsliyin leytmotivini turançılıq, Türk dünyasının birliyi ideyası təşkil edir. Mehman Həsənli Prezident İlham Əliyevin andiçmə mərasimindəki nitqində səsləndirdiyi "Bizim ailəmiz Türk dünyasıdır. Bu bizim üçün prioritetdir" sözlərini xatırladaraq bu leytmotivin günümüzlə səsləşdiyini, bunu nəzərə alaraq "Türk çələngi"nin yenidən nəşrinin əhəmiyyətini qeyd edib. Mehman Həsənli Ədəbiyyat İnstitutunun rəhbərliyi adından nəşrin ərsəyə gəlməsində əməyi olan hər kəsə minnətdarlığını bildirib, AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin nəşrin bir neçə il ərzində davam edən hazırlanması prosesini dəstəklədiyini vurğulayıb: "Biz sevinirik ki, Ədəbiyyat İnstitutu dərsliyin nəşrində yaxından iştirak edib. Müəssisəmiz Abdulla Şaiqin Mənzil-Muzeyi ilə də sıx əməkdaşlıq edir, institutumuzda uzun illər ərzində çalışan muzeyin yaradıcısı akademik Kamal Talıbzadənin isə müəssisənin inkişafında xüsusi yeri var".

Sonra çıxış edən Abdulla Şaiqin Mənzil-Muzeyinin direktoru, AMEA Memarlıq və İncəsənət İnstitutunun aparıcı elmi işçisi sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ülkər Talıbzadə "Türk çələngi" dərsliyinin yeni nəşrinin təqdimatını muzey üçün mühüm hadisə adlandırıb və qeyd edib ki, muzeydə həm Abdulla Şaiqin irsi öyrənilir və tədqiq olunur, həm də muzeyin yaradıcısı akademik Kamal Talıbzadənin əsasını qoyduğu ənənələr qorunub saxlanılır: "Əsas ənənə ondan ibarətdir ki, muzeyin fəaliyyətində elmi tədqiqatlar xüsusi yer tutur. Akademik Kamal Talıbzadə Şaiqlə bağlı bütün materialları toplayaraq fondumuzda qorunan muzey əşyalarının sayını 9 minə çatdırıb. Fondun əsas bölmələrindən biri həm Şaiqin, həm də akademikin zəngin şəxsi kitabxanalarının saxlanıldığı Kitab fondudur. Hamımız respublikada dərsliklərin hazırlanması sahəsində mövcud çatışmazlıqları bilirik. Düşünürəm ki, maarifçilərimizin tərtib etdikləri dərsliklər müasir dərsliklərin hazırlanması zamanı nümunə qismində çıxış etməlidir".

"Türk çələngi" dərsliyi haqqında danışan Ülkər Talıbzadə kitabın çətin dili olduğunu qeyd edərək buna görə transfoneliterasiyanın uzun illər boyu həyata keçirildiyini vurğulayıb. Muzey direktoru Arzu Əhməd Hacıyevanı gərgin əməyinin nəticəsinin işıq üzü görməsi münasibətilə təbrik edib, akademik İsa Həbibbəyli və Ədəbiyyat İnstitutunun bütün kollektivinə dərin minnətdarlığını bildirib.

Daha sonra dosent Arzu Əhməd Hacıyeva "Abdulla Şaiqin irsində "Türk çələngi"nin yeri" adlı məruzə ilə çıxış edib. Şaiqin müxtəlif siyasi rejimlər dövründə yaşamasına baxmayaraq hər zaman öz prinsiplərinə sadiq qaldığını deyən alim ədibin bütün fəaliyyətinin türkçülük ideyaları işığında milli özünüdərkin formalaşmasına yönəldiyini, Şaiqin milli ideologiyanın banilərindən biri hesab olunduğunu vurğulayıb. Arzu Əhməd Hacıyeva qeyd edib ki, ömrünün 40 ilindən çoxunu pedaqoji fəaliyyətlə məşğul olan Abdulla Şaiq həm də milli pedaqogikanın banisidir, onun müəllifi və həmmüəllifi olduğu 30-a yaxın dərslikdə türk xalqlarının dili, folkloru, etnogenezi haqqında materiallar öz əksini tapıb.

Abdulla Şaiqin ədəbi yaradıcılığının mərkəzində Türk dünyasının birliyi ideyasının, Turan sevgisinin durduğunu bildirən alim türk xalqlarının həyatının müxtəlif tərəflərini əhatə edən qiymətli mənbələrin yer aldığı "Türk çələngi" dərsliyinin yenidən nəşrinin günümüzün tələblərinə və çağrışlarına uyğun olduğunu vurğulayıb.

Ədəbiyyat İnstitutunun şöbə müdirləri filologiya elmləri doktorları, professorlar İslam Qəribli, Asif Rüstəmli, Tahirə Məmməd, institutun elmi katibi filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Bağırlı, filologiya elmləri doktorları, dosentlər Lütviyyə Əsgərzadə və Eşqanə Babayeva çıxış edərək Abdulla Şaiqin çoxşaxəli yaradıcılığının müxtəlif aspektləri haqqında danışıblar. Çıxışlarda Şaiqin ədəbi, pedaqoji, maarifçilik fəaliyyəti, milli özünüdərkin inkişafı və gələcək nəsillərin tərbiyəsində tutduğu mövqesi, uşaqlar üçün yazdığı əsərlərin lirikliyi, tez yadda saxlanılması və fəlsəfəsi, Türk dünyasının işıqlı gələcəyi və birliyinə inamı haqqında bəhs olunub.

Qeyd edək ki, "Türk çələngi" dərsliyi beş bölmədən ibarətdir. "Vətən", "Təbiət", "Məişət", "Tarixi hekayə və mənzumələr" və "Türk şairləri" bölmələrində türk xalqlarının həyat tərzinin müxtəlif sahələrini əks etdirən nəsr və nəzm nümunələri yer alır. Tədbir boyu alimlərin vurğuladıqları kimi, Vətən haqqında danışarkən, Abdulla Şaiq bütün Türk dünyasını nəzərdə tutub. Məhz buna görə də ədibin tərtib etdiyi dərsliklərdə təqdim olunan nümunələr yalnız Azərbaycan deyil, ümumilikdə türk ədəbiyyatını əhatə edir.

**Nəzmin CƏFƏROVA**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru**

## Şərqşünas alim İzmir Ege Universitetində XX əsrdə Azərbaycan xalqına qarşı törədilmiş soyqırımlarla bağlı məruzə edib

**Azərbaycan Respublikasının Türkiyədəki Səfirliyi, Ege Universiteti, Quba "Soyqırımı Memorial Kompleksi" "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi və İzmir Azərbaycan Dərnəyinin birgə təşkilatçılığı ilə aprelin 15-də İzmir şəhərində yerləşən Ege Universitetində "Erməni problemi və XX əsrdə azərbaycanlılara qarşı törədilən soyqırımı və deportasiyalar" mövzusunda elmi konfrans keçirilib.**



Konfransda AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, Quba "Soyqırımı Memorial Kompleksi"nin mütəxəssisi tarix üzrə fəlsəfə doktoru, dosent Sübhan Talıblı "XX əsrdə azərbaycanlılara qarşı soyqırımlar" mövzusunda məruzə edib. S.Talıblı məruzəsində tarixi fakt, sənəd, dövrü mətbuat, azərbaycan və xarici dilli mənbələrə əsaslanıb.

Tədqiqatçı 1905-1906-ci illər kütləvi qırğınlar, 31 Mart azərbaycanlıların soyqırımı, 1948-1953-cü illər azərbaycanlıların tarixi torpaqları olan Ermənistandan deportasiyası, Ermənistanın işğalı zamanı Azərbaycanın dağıdılmış tarixi, maddi-mənəvi abidələri, Ermənistanın azərbaycanlı mülki və hərbi əsirlərlə rəftarı, Ermənistanın əsassız ərazi iddialarına və müdaxiləsinə etirazlar, "20 Yanvar" faciəsi (Neftçala və Lənkəran faciələri), Meşəli soyqırımı, Ağdaban soyqırımı, Qaradağlı soyqırımı, Ballıqaya soyqırımı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular soyqırımı, Xocalı soyqırımı, Aprel döyüşləri, 44 günlük Vətən müharibəsi haqda geniş çıxış edib.

**ELAN-MÜSABİQƏ**

## Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" əsərinin 950 illiyinə həsr olunmuş beynəlxalq konfrans

**28 iyun 2024-cü ildə AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun təşkilatçılığı ilə Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" əsərinin 950 illiyinə həsr olunmuş beynəlxalq konfrans keçiriləcək.**

Konfransda aşağıdakı mövzular üzrə tədqiqatların nəticələrinin təqdim olunması nəzərdə tutulur:

I bölmə. Mahmud Kaşğari "Divan"ı və türk dillərinin tarixi qrammatikası
II bölmə. Mahmud Kaşğari "Divanı" və onomasitika məsələləri
III bölmə. Mahmud Kaşğari "Divan"ı və lüğətçilik ənənələri
IV bölmə. Mahmud Kaşğari "Divan"ı və müasir türk dilləri

**MƏQALƏ MÜƏLLİFLƏRİNİN NƏZƏRİNƏ**

- Mətnin həcmi 5 səhifə, A4 formatda, 12 ölçüdə, Times New Roman şrifti ilə;
- Məqalə A4 formatda, hər tərəfdən 2 sm., 1,15 interval ölçü ilə;
